Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

12 APREL 2019-cu il

№ 65 (3963)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# ERMƏNİSTANDAN PUTİNƏ İKİ RƏSMİ HƏMLƏ - PARLAMENTİ GÜLLƏLƏTDİ, «ROSSİYA» TELEVİZİYASI MƏHDUDLAŞDIRILSIN...

■ səh. 8 ■

Bir ildə Prezidentin fəaliyyətindəki fərqli üsul, davranış və taktikalar...

■ səh. 3 ■

Tonoyanın "müharibə ilə yeni ərazilər" bəyanatına Ermənistanda sərt etirazlar - "Səhv buraxıb"...

■ səh. 9 ■

Azərbaycan XİN Paşinyanın Strasburqda bir bəyanatına belə izah verdi - "Helsinki Yekun Aktının 2-ci maddəsindən xəbərsizlik"...

■ səh. 3 ■

İrəvan Kremllə açıq düşmənçiliyə başladı...

■ səh. 6 ■

Bakıda hələ də tüstüsü kəsilməyən restoranlar Ekologiya Nazirliyinə hansı cavabları qaytardılar...

■ səh. 13 ■

Sumqayıtda əlaçı universitet tələbələrinə verilən "Bələdiyyə təqaüdü" nə deməkdir...

■ səh. 14 ■

Maştağada Daş karxanası massivinin sakinləri susuzluqdan yanır...

■ səh. 15 ■

*Saxtakar baş nazirin ölkəsini «Avropa dövləti» adlandıran AŞPA baş katibinin (maddi) marağı...*




■ səh. 5 ■

## Paşinyanın AŞPA-da yeni Qarabağ saxtakarlığı - «Heydər Əliyev Robert Köçəryanla «DQR» prezidenti kimi dialoq aparıb»(?)



**«Visa» və «MasterCard» Azərbaycan banklarına tələb qoydu - təmassız kart...**

■ səh. 10 ■



**Xətaidən, Qacardan, Nadir şahdan kino çəkilişinə İran mane olur?...**

■ səh. 11 ■

**İsfəndiyar Axundovun qardaşı oğlu Eldəniz Axundovun da adı mənzil-tikinti qalmaqalında çıxdı**

■ səh. 12 ■

■ səh. 5 ■

ATƏT PA-nın Azərbaycanla bağlı gizli saxlanan qətnaməsi...



■ səh. 8 ■

Trampın SEPAH qərarı və Azərbaycan - İran hərbi əməkdaşlığının mümkün zədələnmə ehtimalı...



■ səh. 7 ■

Ermənilər hansı Marağadakı 100 ermənininin 10 aprel soyqırımından danışırlar...



■ səh. 14 ■

Azərbaycanda arıçılıq turizmi...



■ səh. 15 ■

Toyuq kəsimi və donuzçuluq bir yerdə - "Qida Agentliyi bu işi inzibati qaydada həll edə bilməyəcək"...





## Məmmədyarovla Mnatsakanyan aprelin 15-də Moskvada görüşəcək - Lavrovun iştirakı ilə...

**Aprelin 15-də Moskvada Azərbaycan və Ermənistan xarici işlər nazirləri Elmar Məmmədyarovla Zöhrab Mnatsakanyan arasında görüş keçiriləcək.**

Bu barədə baki-xeber.com-a Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidmətindən bildirilib.

Qeyd olunub ki, görüşdə Rusiyanın xarici işlər naziri Sergey Lavrov da iştirak edəcək.

## Çavuşoğlu Makronun qondarma "erməni soyqırımı" ilə bağlı qərarını tənqid edib

**Fransa Prezidenti Emmanuel Makron 24 aprel tarixinin qondarma "erməni soyqırımı"nın xatirə günü elan edilməsi haqqında fərman imzalamaqla beynəlxalq hüququ kobud şəkildə pozub.**



"Trend"in məlumatına görə, bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu "Twitter" səhifəsində yazıb.

Nazir bildirib ki, E.Makron belə qərar qəbul etməzdən əvvəl öz ölkəsinin tarixinin qaranlıq məqamlarına diqqət etsəydi, yaxşı olardı.

Qeyd edək ki, aprelin 10-da E.Makron 24 aprel tarixinin Fransada qondarma "erməni soyqırımı"nın xatirə günü elan edilməsi haqqında fərman imzalayıb.

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

**«Bakı-Xəbər» qəzetini hər səhər evinizdə və iş yerinizdə əldə etməyin ən asan yolu -**

**Abunə!**

Abunə istəyinizdən asılı olaraq 1-12 aylıq müddətə yazılır.

1 aylıq abunə qiyməti - **8 AZN**

3 aylıq abunə qiyməti - **24 AZN**

**Abunə yazılışı aşağıdakı mətbuat yayım şirkətləri vasitəsilə həyata keçirilir:**

**QAYA - telefonlar:** (012) 564-63-45; 564-48-96

**Azərmətbuatyayım:** (012) 441-19-91; 440-27-85; 440-39-83

**Press İnform:** (012) 498-00-80; (055) 315-60-02

# AŞPA baş katibi Paşinyanla görüşdən sonra təklif verdi və Azərbaycan XİN-dən cavabını aldı...

**Erməni kütləvi informasiya vasitələri Avropa Şurasının baş katibinin Strasburqda Ermənistan baş naziri ilə görüşdən sonra mətbuata verdiyi açıqlamasında Avropa Şurasının insan hüquqları üzrə komissarına Dağlıq Qarabağa səfər hüququnun verilməsinin vacibliyi ilə bağlı fikir səsləndirib.**

Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva Erməni KİV-də yayılmış bu məsələ ilə bağlı "Trend"ə açıqlamasında deyib ki, Avropa Şurasının baş katibi T.Yaqland üzv ölkələrə "boz ərazilərə", o cümlədən Dağlıq Qarabağa səfərlərlə bağlı siyasi qərarın qəbul edilməsini təklif edib.

L.Abdullayeva deyib ki Azərbaycanın sözügedən məsələ ilə bağlı mövqeyi



aydındır və dəfələrlə müvafiq beynəlxalq təşkilatların, o cümlədən Avropa Şurasının diqqətinə çatdırılıb:

"Bu və ya digər şəxsi, o cümlədən beynəlxalq təşkilatın nümayəndəsini və ya əcnəbi dövlətin vətəndaşını beynəlxalq tanınmış sərhədləri çərçivəsində və yerli qanunvericiliyə uyğun olaraq öz ərazisinə buraxmaq hüququ suveren dövlətə aiddir".

# Hicran Hüseynova məktəbli qızın intihar hadisəsinin kampaniyalaşdırıldığını iddia etdi

**Bakı şəhəri, 162 nömrəli tam orta məktəbin şagirdinin intihar etməsi ilə bağlı müvafiq dövlət orqanları tərəfindən araşdırmalar gedir və bu məsələ ilk gündən Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın diqqət mərkəzindədir.**

"Trend"in məlumatına görə, bunu Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova deyib. H.Hüseynova bildirib ki, hazırda istintaq gedir, araşdırmalar aparılır. Bununla yanaşı, məsələni mahiyyətindən çıxardaraq sosial şəbəkələrdə kampaniyalaşdırmağa və ya siyasiləşdirməyə ehtiyac yoxdur. Burada məsələnin diqqətdən kənarda qalması rəyinin formalaşdırılması da düzgün deyil. "İndi heç kəsi təqsirləndirmək istəməzdim, bütün bunlar istintaq işi yekunlaşdıqdan sonra biləcək", - deyə Hicran Hüseynova bildirib. Qeyd edək ki, Bakı şəhər Prokurorluğu və Bakı Şəhəri üzrə



Təhsil İdarəsi orta məktəbdə baş vermiş intihar hadisəsi ilə bağlı aprelin 6-da birgə məlumat yayıb. Məlumatda deyilir ki, aprelin 4-də Bakı şəhəri Səbail rayonu Etibar Əliyev adına 162 nömrəli tam orta məktəbin VIII sinif şagirdi məktəbin III mərtəbəsindən yıxılaraq müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Xəsarət almış şəxs müalicə olunmaq üçün 1 saylı Şəhər Klinik Xəstəxanasına yerləşdirilib. Aparılan müalicə tədbirlərinə baxmayaraq, o, aprelin 6-da xəstəxanada vəfat edib. Faktla bağlı Bakı şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb, iş üzrə müvafiq ekspertizalar təyin edilib və digər zəruri istintaq tədbirləri həyata keçirilir.

## Türkiyə XİN İtaliya parlamentinin qərarının heç bir qüvvəyə malik olmadığını bildirdi

**İtaliya Parlamentinin qondarma "erməni soyqırımı" ilə bağlı qərarı heç bir qüvvəyə malik deyil.**

"Trend"in məlumatına görə, bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu özünün "Twitter" səhifəsində yazıb. Nazir qeyd edib: "İtaliyanın Nümayəndələr Palatasının bu qərarı tarixi siyasiləşdirmək cəhdləri kimi heç bir bir qüvvəyə malik deyil". Qeyd edək ki, İtaliya Parlamenti Osmanlı İmperiyasında 1915-ci ildəki hadisələri "erməni soyqımı" kimi qəbul etməyi hökumətə tövsiyə edən qətnamə qəbul edib.

# Ekvador ona sığınan "Wikileaks"in təsisçisini Britaniya polisinə "satdı", Assanj həbs edildi

***Zaxarova:** "Demokratiya"nın əli azadlığın boğazını üzür..."*

**7 ildir Londondakı Ekvador səfirliyində yaşayan qalmaqallı "Wikileaks" saytının təsisçisi Culian Assanj Böyük Britaniya polisi tərəfindən saxlanıb.**

Baki-xeber.com xəbər verir ki, Assanjın sığınacaq hüququnu əlindən alan Cənubi Amerika ölkəsi həmin vaxt Britaniya polisini də diplomatik nümayəndəliyə çağırıb, polis də C.Assanjı səfirliyin ərazisində saxlayıb. Ekvador prezidenti Lenin Moreno, Assanjın beynəlxalq konvensiyaları dəfələrlə pozduğuna görə



bu qərarı verdiklərini deyib. Moreno Böyük Britaniyadan onun ölüm cəzası tətbiq oluna biləcək başqa bir ölkəyə verilməməsinə dair zəmanət aldıqlarını söyləyib. Wikileaks isə Ekvadorun bu addımını beynəlxalq hüquqa zidd olduğunu vurğulayıb. Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Londonda Ekvador səfirliyində "Wikileaks" portalının təsisçisi Culian Assanjın saxlanılmasını şərh edərkən deyib ki, "demokratiya"nın əli azadlığın boğazını üzür. Xatırladaq ki, Culian Assanj ABŞ-a ekstradisiya olunmaq təhlükəsi ilə əlaqədar 7 ildir Ekvador səfirliyində sığınmışdı.

# Bir ildə Prezidentin fəaliyyətindəki fərqli üsul, davranış və taktikalar...

**Dövlət başçısı İlham Əliyevin yenidən Azərbaycan Prezidenti seçilməsinin bir ili tamam olur. Ötən müddət ərzində ölkədə hərtərəfli dinamik inkişaf, sabitlik və əminamanlıq təmin edilib. Azərbaycanın beynəlxalq mövqeləri daha da möhkəmlənib.**



## *Aydın Hüseynov: "Prezident İlham Əliyevin bu ilin əvvəlindən həyata keçirdiyi sosial paket inqilabi bir addım idi"*

Dövlət başçısının seçkilər ərəfəsində yeni iqtisadi modelə keçidlə, iqtisadi və sosial sahədə islahatların aparılacağı ilə bağlı vədləri ardıcıl olaraq yerinə yetirilir. Hər zaman fəaliyyətində xalqın dəstəyinə arxalanan ölkə başçısı daim xalq ilə təmasda olur. Vətəndaşları narahat edən problemləri birbaşa onların dilindən dinləyir və bu məsələlərin həlli ilə bağlı müvafiq göstərişlər verir. Ötən bir il ərzində də Prezidentin hər zaman xalqın yanında olduğunun, onların problemlərinin həllinə xüsusi həssaslıqla yanaşdığının bir daha şahidi olduq. Məlum olduğu kimi, bu il fevralın 5-i və 6-da baş verən zəlzələlər nəticəsində Şamaxı, İsmayıllı və Ağsu rayonlarında bir sıra fərdi evlərə, sosial və infrastruktur obyektlərinə ciddi ziyan dəydi. Hadisədən dərhal sonra dövlət başçısı zəlzələ baş verən ərazidə oldu, vəziyyətlə yerində tanış olaraq vətəndaşlarla görüşdü. Təbii fəlakətin nəticələrinin aradan qaldırılması istiqamətində göstərişlər verdi, müvafiq sərəncam imzalandı və vəsait ayrıldı. Qısa müddət ərzində fəlakətin nəticələrinin aradan qaldırılması istiqamətində işlərə start verildi.

Cari ilin əvvəlindən başlayaraq Prezident İlham Əliyev tərəfindən müxtəlif istiqamətlərdə olduğu kimi, sosial sahədə də ciddi addımlar atıldı. Sosial inqilab xarakterli bu qərarlar, demək olar ki, əhalinin bütün təbəqələrini əhatə etdi. Şəhid ailələrinə, məcburi köçkünlərə, tələbələrə, əlilliyi olan şəxslərə verilən müavinətlər, minimum aylıq əməkhaqqı, pensiyalar artırıldı. Dövlət idarəçiliyində innovativ metodlara daha çox üstünlük verildi. Son illər Azərbaycanın dövlət idarəetmə sistemində modernləşmənin, şəffaflığın təmin edilməsi və idarəetmədə yeni fəaliyyət üslubunun formalaşdırılması istiqamətində böyük işlər görülüb. Son bir ildə bu sahədə davamlı inkişaf üçün mühüm tədbirlər görülüb. Azərbaycanda aparılan islahatlar, həyata keçirilən mühüm tədbirlər ölkə vətəndaşları ilə yanaşı, beynəlxalq ictimaiyyət tərəfindən də böyük maraqla izlənir və müxtəlif beyin mərkəzləri tərəfindən yüksək qiymətləndirilir. Azərbaycan dünyanın ən çox islahat aparan ölkəsi elan olunub.

Bütün bunların fonunda, son bir ildə Prezident İlham Əliyevin fəaliyyətində əvvəlki illərdən fərqli, hansı yeni fəaliyyət taktikaları və davranışlar özünü göstərir?

Sözügedən məsələni

*"Problemli kreditlərlə bağlı məlum qərar və idarəçiliyin daha da təkmilləşdirilməsi xüsusi qeyd edilməlidir"*

**"Bakı-Xəbər"ə şərh edən millət vəkili Aydın Hüseynov bunu bir neçə aspektdən dəyərləndirdi:** "Əvvəla ötən ilin 11 aprelində Azərbaycan xalqı özünün növbəti tarixi səhifəsini yazdı. Bu da cənab İlham Əliyevin yenidən Prezident seçilməsidir. Ötən bir il ərzində Azərbaycan dövləti iqtisadi, sosial, idarəetmə və digər sahələrdə çox böyük nailiyyətlərə imza atdı. Bütün bunların ərsəyə gəlməsində ölkə başçısının müstəsna xidmətləri var. Prezidentin həyata keçirdiyi uğurlu islahatlar nəticəsində iqtisadi, sosial, idarəçilik sahəsində sistemli işlər görülüb. Eyni zamanda, bütün sahələrdə nailiyyətlər əldə olunub. Uğurlu islahatlar nəticəsində ölkə iqtisadiyyatı 1,4 faiz artıb. Bu çox mühüm iqtisadi artımdır. Artıq birinci rübün yekunlarına görə, ölkənin ümumdaxili məhsulu 3 faiz artıb. Xüsusən qeyri-neft sektorunda mühüm nailiyyətlər əldə olunub. Təkcə bu ilin yanvarında qeyri-neft sektorunda qeydə alınan artım 2018-ci ilin yanvarı ilə müqayisədə 12 faiz çoxdur. Qeyri-neft iqtisadiyyatında sənaye sektoru 9,8 faiz artıb. Əhalinin pul gəlirləri yüksəlib. Prezident İlham Əliyevin bu ilin əvvəlindən həyata keçirdiyi sosial paket inqilabi bir addım idi. Minimum əməkhaqqı, pensiya və sosial müavinətlər əhəmiyyətli dərəcədə artırıldı. Bu artımlar böyük sayda ölkə əhalisini əhatə etdi. Prezident İlham Əliyevin siyasətində başlıca məqsəd Azərbaycan vətəndaşıdır. Onun maraqları, sağlamlığı və sosial rifahının yüksəldilməsidir. Ölkə iqtisadiyyatı artdıqca, vətəndaşlara daha çox qayğı göstərilir. Məcburi köçkünlər və şəhid ailələri dövlətin həyata keçirdiyi siyasətin mərkəzində dayanır".

A.Hüseynovun fikrincə, problemli kreditlərlə bağlı məlum qərar və idarəçiliyin daha da təkmilləşdirilməsi, ortaya çıxan sosial problemlərin daha çevik həlli ilə bağlı fəaliyyət xüsusi qeyd edilməlidir: "Məlum olduğu kimi, dövlət başçısının qərarı ilə vətəndaşların problemli kredit məsələsi həll edildi. Sosial məsələlərin həlli ilə bağlı çevik idarəçilik metodları tətbiq edilir. İdarəçilikdə inklüziv metodlara keçilir. Ümumilikdə, idarəçilik daha da təkmilləşdirilir. Ölkədə stabillik və təhlükəsizlik daha da güclənib. Azərbaycanda həm iqtisadi, həm də siyasi sabitlik daha da möhkəmlənib. Ümumiyyətlə, ötən bir ildə əldə olunan nailiyyətlər çoxdur və bütün bunlar ölkə başçısının uğurlu siyasəti ilə bağlıdır".

***Vidadi ORDAHALLI***



# Azərbaycan XİN Paşinyanın Strasburqda bir bəyanatına belə izah verdi - "Helsinki Yekun Aktının 2-ci maddəsindən xəbərsizlik"...

**Gücdən istifadə etməmək və gücdən istifadə ilə hədələməmək ifadələrini səsləndirən Ermənistan baş nazirinə beynəlxalq hüququn bu prinsipləri barədə maariflənmək məqsədilə ATƏT-in 1975-ci il Helsinki Yekun Aktı ilə tanış olmağı israrla tövsiyə edirik.**

Bu, Xarici İşlər Nazirliyinin mətbuat xidməti idarəsinin Ermənistan baş naziri Nikol Paşinyanın Strasburqda mətbuata verdiyi açıqlamasında "təklifimiz Azərbaycanın Qarabağ məsələsində istifadə etdiyi gücdən istifadə, gücdən istifadə ilə hədələmə və hərbi ritorikadan imtina etməsidir" fikri ilə bağlı baki-xeber.com-a şərhində deyilir.

XİN bildirir ki, Helsinki Yekun Aktının məlum 10 prinsipi arasında ikinci yerdə sadalanan "gücdən istifadə etməmək və gücdən istifadə ilə hədələməmək" prinsipi ilə bağlı qeyd olunur: "Dövlətlər qarşılıqlı münasibətlərində, eləcə də ümumiyyətlə beynəlxalq münasibətlərində hər hansı ölkənin ərazi bütövlüyü və siyasi müstəqilliyinə qarşı və ya BMT və hazırkı bəyanatın məqsədlərinə uyğun olmayaraq güc tətbiqindən və gücdən istifadə ilə hədələmədən çəkinəcəklər".

Bütün beynəlxalq ictimaiyyət Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü tanıyır və BMT TŞ-nin 1993-cü il tarixli 4 qətnaməsində Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu vurğulanaraq, işğalçı erməni qüvvələrinin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxması tələb olunur.

Gücdən istifadə olunmamasını təklif edən erməni baş nazirini bölgədə davamlı sülh, təhlükəsizlik və rifahın təmin olunması naminə öz ölkəsinin silahlı qüvvələrini Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması istiqamətində beynəlxalq ictimaiyyətin tələblərinə uyğun olaraq təxirəsalınmaz addımlar atmağa çağırırıq.

# 16 il ərzində icra edilən 100 illik proqramlar...

## *Prezident İlham Əliyev son birillik fəaliyyəti ilə dünyanın inkişaf nəzəriyyələrini dəyişdi*

**Dublin "Triniti Kolleci" dünyanın qədim təhsil ocaqlarındandır. 1592-ci ildə tikilib, istifadəyə verilib. Kollec adlandırılsa da, indi universitet statuslu ali təhsil müəssisəsidir; 1711-ci ildən başlayaraq, kollecdə tibb ixtisasının da tədrisinə başlanılması ilə, universal təhsil müəssisəsinə çevrilib. "Triniti Kolleci"n (universitetin) dünyaca məşhur olması, onun qədimliyi ilə yanaşı, digər iki məqamla bağlıdır.**



Onlardan biri kollecin nəzdindəki qədim kitabxanadır. Bütün dünyada tanınan "Triniti Kollec kitabxanası"da 4,5 milyon cild kitab, çoxlu sayda tarixi xəritələr, əlyazmalar və musiqi əsərləri qorunub saxlanılır. Kolleksiyaların əksəriyyəti XVI əsrin sonlarından başlayaraq toplanıb. Amma kitabxana tarixdə ilişib qalmayıb, dövrə uyğun yenilənir. Hazırda onun internet səhifəsində 300.000 kitab yerləşdirilib. Tarixən istifadə edilmiş oxu zalında isə 3200 oxucu yerləşdirmək imkanına malikdir. Zaldakı oxucu yerlərinin hamısı İnternet şəbəkəsinə qoşula bilirlər. Bu kitabxana tarixi binalarda yerləşdiyi üçün, İrlandiyanın əsas diqqətəlayiq yerlərindən biri, turistik məkanlarından hesab edilir.

"Triniti Kolleci" Dublin şəhərinin mərkəzində yerləşir və 190000 m? ərazini əhatə edir. Bununla yanaşı, Kollecin tarixi kampusu, orada inşa edilmiş binalar olduğu kimi qorunub saxlanılır, zəngin memarlıq nümunələrindən hesab olunur. Burada xüsusilə XVIII əsrdə, öz dövrünün memarlıq üslublarında inşa edilmiş tikililər çoxluq təşkil edirlər. Binalar və binaların həyəti dördbucaq formasında olduğundan, kampus şəhər mərkəzinə yerləşdirilmiş böyük kvadratı xatırladır.

Burada diqqət çəkən əsas məqamlardan biri, kampusun, bizim anlamda desək, "tələbə yataqxanası" ilə bağlıdır. XVI əsrdə inşa edilən "tələbə yataqxanaları" bu gün də istifadə edilirlər, həm də öz təyinatları üzrə. Hətta Kollecin (Universitetin) büdcəsinə qatqı vermək üçün maraqlı bir mexanizm tətbiq edilib: tələbələr tətildə olduqları müddətdə bu "yataqxanalar" turistlərin istifadəsinə verilirlər, hostel xidməti göstərirlər. 2013-cü ildə İrlandiyaya səfərim çərçivəsində bu hosteldən istifadə etmək nəsibim olub. Tarixiliklə müasirliyin harmoniyası insana xoş ovqat yaşadır, çoxlu turist cəlb edir. Rəsmi statistikada bildirilir ki, İrlandiyaya təkcə "Triniti Kolleci"in kitab sərgisini və qədim "tələbə yataqxanasını" görmək, bu tarixi hostellərdə qonaqlamaq məqsədilə hər il 1,5 milyondan çox turist gəlir.

**Dublin "Triniti Kollec" kompleksi uzunmüddətli və çoxfunksiyalı fəaliyyətinə görə, tarixdə özü ilə yanaşı, qurucusu olan "Kraliça Yelizaveta"nın da adını yaşadır, məşhur edir. Həm də ərazisində olduğu ölkənin iqtisadiyyatına qatqısı var: hər il ölkəyə 1,5 milyon turist gəlişinə səbəb olmaqla, fayda verir.**

Əslində, "Triniti Kollec" nümunəsini göstərməklə vurğulamaq istədiyim məqam da bununla bağlıdır. Dünyanın inkişaf etmiş ölkələri mərhələlərlə, tədricən qurulublar. Bir hakimiyyət dövründə yol infrastrukturu qurulub; digər hakimiyyət turistik bölgələri inkişaf etdirib, obyektlər qurub; başqa bir hakimiyyət komandası ordu quruculuğu, kimisi də sosial-humanitar siyasəti, təhsil, səhiyyəyə proqramları ilə ölkə tarixində iz qoyub, ad qazanıb, ölkəsinin inkişafına qatqı verib. Yekunda inkişaf etmiş, dünyada söz sihibi olan dövlət formalaşıb.

Azərbaycan Respublikasının əhatə etdiyi coğrafi ərazidə isə tarix boyu mərhələlərlə gerçəkləşdirilməli olan proqramların reallaşdırılması qısa zaman kəsiyinə, Prezident İlham Əliyevin hakimiyyəti dövrünə təsadüf edir. Dublin "Triniti Kollec"dən təsadüfən nümunə göstərmədik: Dublinin paytaxt olduğu İrlandiya Respublikasının sahəsi (Şimali İrlandiya başqadır, Böyük Britaniya tərkibindədir) az fərqlə Azərbaycan Respublikasının ərazisi qədərdir - 70 208,67 km?. Əhalisi isə yarı qədər azdır - 4. 239. 848 nəfər. Amma İrlandiya Respublikasından fərqli olaraq, Azərbaycan Respublikasının ərazisində yalnızca, tək başına 1,5 milyon nəfərlik turist cəlb edəcək, həm də bu həcmdə turisti yerləşdirə biləcək infrastruktura malik obyekt yoxdur, olmayıb. 100 illər boyunca, mərhələlərlə, tədricən qurulmalı olan ciddi turizm infrastrukturu ölkəmizdə son illərdə, həm də qısa müddətdə qurulur. Prezident İlham Əliyevin təşəbbüsü ilə xüsusi plan icra edilir. Təkcə Quba-Qusar turizm bölgəsində son 16 il müddətində qurulan turizm infrastrukturu kifayət edər ki, həmən proqramı formalaşdıran və icra etdirən ölkə rəhbərinin adı tarixə düşsün. Ayrıca götürsək, təkcə Şəki-Qəbələ turizm bölgəsində son 16 il müddətində qurulan turizm infrastruktur kifayət edər ki, infrastrukturu qurduran ölkə rəhbərinin adı tarixdə xatırlansın…

Amma proses təkcə turizm infrastrukturunun qurulması ilə yekunlaşmır. Ölkənin 4 tərəfini paytaxt Bakıyla birləşdirən müasir yolların tikilməsi, paralel olaraq, beynəlxalq Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizlərinin ölkəmiz üzərində kəsişməsinə nail olunması, bu dəhlizlərin fəaliyyətini təmin edəcək yol infrastrukturunun tikilməsi kifayət edir ki, bu proqramı icra etdirmiş prezidentin adı tarixə düşsün, ləyaqətlə yad edilsin. Avropa-Qafqaz-Asiya (TRASECA) nəqliyyat dəhlizi, Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksi artıq istifadəyə verilib, Şərq-Qərb nəqliyyat dəhlizləri üzrə magistral yolların tikintisi layihələri uğurla davam etdirilir. Bunların hər biri ayrı-ayrılıqda bir hakimiyyət dönəmi üçün yadda qalacaq böyük layihələrdirlər.

Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı proqramlarının hazırlanaraq icra edilməsi, rayonların infrastruktur, region əhalisinin həyat səviyyəsi baxımından paytaxt standartları səviyyəsinə yüksəldilməsi, iqtisadi infrastrukturun formalaşdırılması başqa bir kontekstdir. Dünya Bankının "Doing business" hesabatına görə, Azərbaycan biznes mühitinin formalaşdırılması, iqtisadi yüksəlişinə görə dünya ölkələri sırasında 25-ci yerdədir.

İnkişaf reysinə çıxarılmış dövlətin sisial-iqtisadi qüdrətinin artırılması ilə yanaşı, müdafiə qabiliyyətinin möhkəmləndirilməsi yönündə proseslər də paralel şəkildə aparılıb. Beynəlxalq reytinq təşkilatları elan ediblər ki, Azərbaycan Ordusu dünya miqyasında öz potensialına görə 52-ci yerdədir. 2016-cı ilin aprelində Qarabağ cəbhəsində, 2018-ci ildə Naxçıvanda gerçəkləşdirilən əməliyyatlar zamanı Azərbaycanın modern ordusu barədə deyilənlər öz təsdiqini tapdı. Sadalanan faktlar nəticə çıxarmağa kifayət edir ki, son 16 il ərzində Azərbaycanın müstəqil dövlət quruculuğu nəzəriyyədən praktikaya çevrilmiş, dövlət tam bir mexanizm olaraq formalaşdırılıb. Ümumiləşmə üçün deyək ki, Azərbaycanda 100 illər boyunca reallaşdırılmalı olan, amma yalnız xəyallarda mövcud olan proqramlar son 16 il ərzində icra edildi.

Son bir ildə, yəni 2018-ci ilin aprel prezident seçkisindən sonar İlham Əliyevin fəaliyyətində diqqət çəkən tendensiyalar ortaya çıxıb, keyfiyyət dəyişiklikləri aparılır.. Əvvəlki dönəmdə ölkədə dövlət quruculuğuna yönəlmiş proqramlara üstünlük verilirdisə, indi artıq formalaşmış dövlətin öz vətəndaşının həyatında, rifah halında əksi prioritetə çevrilib. Xalqın istək və arzuları önə çəkilir, bundan irəli gələn vəzifələrin reallaşdırılmasına çalışılır.

Prezident 2018-ci ilin aprel seçkisindən sonra keçirilmiş andiçmə mərasimində bu fəaliyyətin anonsunu vermişdi, indi onu əməli addımlarla həyata keçirir. İcra edilən proqramlar çoxşaxəlidir: kadr islahatlarından tutmuş struktur və məhkəmə islahatlarının aparılmasına, sosial müavinətlərin artırılmasına qədər geniş spektri əhatə edir. Hazırda ölkədə vətəndaş məmnunluğunun təmin edilməsi proqramı reallaşdırılır və buna nail olunur.

**İcra edilən proqramın uğurlu alınması ölkə əhalisinin rəyində əksini tapır. Fransanın "Opinion Way" şirkətinin keçirdiyi rəy sorğusunun nəticələri xalqın dövlət başçısının siyasətini bəyəndiyini ehtiva edir.**

***Müşfiq ƏLƏSGƏRLİ***

# Paşinyanın AŞPA-da yeni Qarabağ saxtakarlığı - "Heydər Əliyev Robert Köçəryanla "DQR" prezidenti kimi dialoq aparıb" (?)

*Saxtakar baş nazirin ölkəsini "Avropa dövləti" adlandıran AŞPA baş katibinin (maddi) marağı...*

**Məlumdur ki, aprelin 11-də Ermənistanın baş naziri Paşinyan Strasburqda AŞPA sessiyasında çıxış edib və təbii ki, çıxışını əsasən Ermənistanın faktiki müharibə siyasətinə sülhsevər don geyindirmək cəhdinə və Qarabağ danışıqlarına həsr edib.**

Əslində, AŞPA deputatlarına məlum olan bir sıra reallıqları o qədər təhrif edib ki, buna sadəcə olaraq AŞPA deputatlarını təhqir etmək, ələ salmaq demək doğru olardı. Məsələn, o deyib ki, hazırda bütün səylərimiz ATƏT-in Minsk Qrupu çərçivəsində Azərbaycanla qondarma "DQR" arasında dialoqu bərpa etməyə yönəlib. Paşinyan məsələni elə qələmə verməyə çalışıb ki, guya nə vaxtlarsa Azərbaycanla qondarma separatçı rejim arasında dialoq gedib və sonra dayandırılıb. Özünün təhrif olunmuş xəbərini belə bir yalan məntiqlə əsaslandırmağa çalışıb ki, guya Heydər Əliyev vaxtilə Köçəryan "DQR" prezidenti olanda onunla görüşüb və dialoq aparıb.

Bəs həqiqət və real tarix nə deyir? Reallıq budur ki, Heydər Əliyev prezident olanda özünü qondarma separatçı rejimin prezidenti sayan Robert Köçəryan adlı şəxslə heç vaxt görüşməyib və danışıq aparmayıb. Dəqiq desək, Heydər Əliyev R.Köçəryanla yalnız və yalnız Ermənistanın prezidenti postunu faktiki tutan şəxs kimi görüşüb və danışıqlar aparıb.

Bu tarixi faktlara və onun həyasızcasına saxtalaşdırılmasına diqqət vermək, ilk növbədə, AŞPA-nın baş katibi Torboyn Yaqland cənablarına lazımdır. Çünki bu cənab elə Paşinyanla görüşdə hansı maraqlara (?) görəsə Ermənistanın "Avropa tarixinə və dəyərlərinə" söykənən guya bir Avropa dövlətinə çevrildiyini deyib...

Burda deyərlər "afərin erməni diplomatiyasının satınalma məharətlərinə!" Cəmi bir həftə əvvəl Paşinyan medianı təqib etmək barədə təhlükəsizlik nazirinə tapşırıq verir, cənab Yaqland isə belə baş nazirin ölkəsini "Avropa dövləti" adlandırır. Qaraya bu qədər ağ deməyi bacaran AŞPA baş katibi yəqin ki, Azərbaycanın guya nə vaxtsa separatçı "DQR" rejimi ilə dialoq apardığı barədə yalana əhəmiyyət verməyəcək. Çünki əsl həqiqət onun maraqlarına uyğun deyil.



**Aydın məsələdir ki, Paşinyan mahiyyətli Qarabağ danışıqlarına başlamaqdan hər vasitə ilə yayınır və qondarma rejimin danışıqlarda tərəf kimi iştirak məsələsini gündəmdən çıxarmaq istəmir. AŞPA-da uydurduğu yalan da o məqsədə xidmət edir ki, Qarabağ danışıqlarını uzatsın. Belə bir xəstə və yanlış məntiqə əl atır ki, guya Heydər Əliyev nə vaxtsa qondarma "DQR" prezidenti kimi R.Köçəryanla danışıq aparıbsa, bu gün də Prezident İlham Əliyev "uydurma "DQR"in prezidenti" ilə dialoq apara bilər...**

***Tahir TAĞIYEV***

# ATƏT PA-nın Azərbaycanla bağlı gizli saxlanan qətnaməsi...

**İki gün əvvəl Azərbaycanı ATƏT Parlament Assambleyasında təmsil edən və həmin qurumun vitse-prezidenti olan millət vəkili Azay Quliyev öz "Tvitter" hesabı üzərindən maraqlı bir anons verdi: "Bu gün ATƏT PA-nın Bürosu illik sessiyada təsdiq olunmaq üçün Azərbaycanla bağlı detallarını hələ açıqlamaq istəmədiyim, lakin milli maraqlarımıza tam cavab verən, çox vacib və tarixi qətnamə layihəsi qəbul etdi".**

***Tahir Mirkişili:** "Çünki layihə müxtəlif mərhələlərdən keçməlidir"*

***Yeganə Hacıyeva:** "Yeni qətnamədə belə missiyaların təşkili öz əksini tapacaq"*

Maraqlıdır ki, Azay Quliyevin bu anonsu media mənsublarının da ciddi marağına səbəb olub. Ancaq bütün səylərə baxmayaraq, Azay Quliyev sənədlə bağlı əlavə məlumat verməyib. ATƏT Parlament Assambleyasında hansı sənədin qəbulundan söz gedə bilər və bu məsələnin gizli saxlanmasının səbəbi nə ilə izah olunur?

**ATƏT Parlament Assambleyasında Azərbaycanı təmsil edən millət vəkli Tahir Mirkişili "Bakı-Xəbər"ə bildirdi ki, qurumun növbəti sessiyası yay aylarında olacaq:** "Sözügedən sənədin müəllifi Azay Quliyev olduğu üçün, açıqlama da məhz ondan gəlməlidir. Açıqlamanın tam verilməməsinin siyasi tərəfləri də var. Çünki layihə müxtəlif mərhələlərdən keçməlidir. Mənim bildiyimə görə, layihə ilkin instansiyadan keçib, ardı yay sessiyasında müzakirə ediləcək. Yəqin ki, tam açıqlamanın verilməməsi məhz bununla bağlıdır".

**ATƏT-lə sıx əməkdaşlıq edən, beynəlxalq məsələlər üzrə ekspert Yeganə Hacıyeva isə qəzetimizə bildirdi ki, bu sualla maraqlanan birinci jurnalist deyilik:** "Hamını da bu sual maraqlandırır, niyə bu layihənin mətni mediadan gizlədilir? Ehtimalım budur ki, həmin sənəd sırf Azərbaycana yönəlik deyil, ümumi xarakter daşıyır. ATƏT-in seçki fəaliyyətilə bağlı bu sənədin üstündə ağır yük olacaq. Nəzərə alsaq ki, ATƏT-ə üzv olan bir çox ölkədə seçki prosesləri aparılır və aparılacaq, həmin seçkilərdəki neqativlikləri əsas gətirərək hökumətlərə təzyiqlər edilir. Yəqin ki, bu amillərin aradan qaldırılması, neytrallaşması həyata keçiriləcək. Eyni zamanda, təhlükəsizlik və iqtisadi problemlərin həlli də həmin sənəddə əksini tapacaq. Düşünürəm ki, Azərbaycanın milli maraqlarının təmin olunması məhz bu məqamlarla bağlı ola bilər. ATƏT-ə üzv dövlətlərin ərazi bütövlüyünün tam tanınması, ATƏT coğrafiyasındakı münaqişələrin həllində təkliflər öz əksini tapıb. Ən əsası da, təxmin edirəm ki, uzun müddətdir münaqişə zonasında faktaraşdırıcı missiyaların səfərlərinin təşkil edilməməsi halı var. Fikrimcə, yeni qətnamədə belə missiyaların təşkili öz əksini tapacaq.

Bu baxımdan da milli maraqlarımıza uyğun sənəd olacağı qənaətindəyəm. Bunun mediadan gizli saxlanması maraqların toqquşmasını kompensasiya etmək xarakterini daşıyır. Üzümüzə gələn həftələrdə biz bunun mediaya açıq variantını görəcəyik".




***Məhəmmədəli QƏRİBLİ***

# İrəvan Kremllə açıq düşmənçiliyə başladı...

**Dünya miqyasında heç kimə sirr deyil ki, Ermənistan mövcudluğuna görə birmənalı şəkildə Rusiyaya borcludur. Elə indinin özündə də bu ölkə böyük ölçüdə siyasi və iqtisadi cəhətdən yenə Rusiyadan asılı olaraq qalır. Amma ötən il baş tutan məlum hakimiyyət dəyişikliyindən sonra Ermənistanda hakimiyyətə gələn qüvvələr Qərbə doğru meyillənməyə daha çox səy göstərirlər.**



Düzdür, bu istiqamətdə atılan addımlar da hansısa müsbət nəticə vermir. Amma əvəzində Moskvanı kifayət qədər qıcıqlandırır.

Real vəziyyətin təhlili isə Nikol Paşinyan iqtidarı sayəsində Moskva-İrəvan münasibətlərinin daha bərbad hala gələcəyini istisna etmir. Erməni mediası yazır ki, Rusiyanın Ermənistan ərazisində olan hərbi bazalarının "işğal" kimi qəbul edilməsinə dair cəmiyyətdə məhz Paşinyan iqtidarının təmsilçiləri tərəfindən aparılan təbliğat vəziyyəti daha da pisləşdirir. Bunun nəticəsində ermənilər, həmçinin Rusiyanın atom stansiyası, dəmir yolları, bir neçə elektrik stansiyası və digər strateji mühüm obyektlərə nəzarət etməsinin də "işğal" olduğunu hesab edirlər. Qafqaz institutunun direktoru Aleksandr İskəndəryanın fikrincə, bütün bunlar ona görədir ki, Paşinyan Rusiya-Ermənistan əlaqələrində effelktivliyin artırılmasında maraqlı deyil: "Düşünmürəm ki, indi qəfil dəyişikliklərdən danışmaq olar. Paşinyanın Ermənistanın əvvəlki kursunu davam etdirmək istəyi yoxdur, ancaq onun ətrafında disbalans var. Amma bu ağılsızlıqdır, Rusiyaya qarşı özünü belə aparmaq olmaz. Yeri gəlmişkən, digər nəhənglərlə də həmçinin". Amma görünən budur ki, Paşinyan iqtidarı Rusiyanı daha da qıcıqlandıracaq addımlar atmaqda israrlıdır. Bunun təsdiqi kimi Paşinyanın nəzarətində olan Ermənistan parlamentində "Rossiya" dövlət kanalının yayımının məhdudlaşdırılmasının müzakirəyə çıxarılması göstərilir.

Paşinyanın lideri olduğu "Mənim addımım" fraksiyasının deputatı Narine Tuxikyan bu xüsusda qanunverici orqanın sədri Tiqran Akopyana elm, təhsil, mədəniyyət, diaspor, gənclər və idman üzrə daimi komissiyanın "Milli komissiyanın televiziya və radionun fəaliyyəti haqqında" hesabatını xatırladıb: "Mən Ermənistan ərazisində bu televiziyanın yayımının məhdudlaşdırılması və ya tamamilə dayandırılması, yaxud bəzi proqramların yayımlanması məsələsi ilə maraqlanmışam. Bu kanalın yayımı dayandırılmalıdır". Parlamentin sədri cavabında vurğulayıb: "Bu telekanalın yayımlanması Ermənistanın informasiya məkanı üçün müəyyən təhlükə yaradır. Bir çox ölkələr, o cümlədən Gürcüstan və Ukrayna artıq bu ideyanı reallaşdırıb".

Belə bir vaxtda "Yerkramas" agentliyi də Milli Şuranın müdafiə və təhlükəsizlik məsələləri üzrə daimi komissiyasının genişləndirilmiş iclasının gedişi haqda sensasiyalı informasiya yayıb. Belə ki, komissiyanın 27 oktyabr 1999-cu ildə İrəvanda baş vermiş hadisələrin müzakirəsinə həsr edilmiş iclası zamanı Nikol Paşinyanın silahdaşı, iqtidar partiyasından millət vəkili, müdafiə və təhlükəsizlik məsələləri üzrə parlamentin daimi komissiyasının sədri Andranik Koşaryan sensasiyalı bəyanatla çıxış edib: "Oktyabr ayının 27-də törədilən cinayətin üstü açılıb. Sifarişçilər məlumdur. Bu, Rusiyanın xüsusi xidmət orqanları tərəfindən Vladimir Putinin əmri ilə həyata keçirilib". Putinə qarşı Paşinyanın silahdaşının belə bir ittihamla çıxış etməsi, aydındır ki, baş nazirin razılığı olmadan mümkün deyil. Elə bu səbəbdəndir ki, Ermənistandakı analitiklər Vladimir Putin barəsində onu ləkələyən bəyanatın səsləndirilməsinə rəsmi İrəvan və Kreml arasında münasibətlərin pisləşməsinin nəticəsi kimi baxır.

Xatırladaq ki, 27 oktyabr 1999-cu il tarixində bir neçə terrorçu Ermənistan parlamentinin binasına daxil olaraq, spiker Karen Dəmirçiyanı, baş nazir Vazgen Sarkisyanı, spikerin müavinləri Yuri Baxşyanı və Ruben Miroyanı, operativ məsələlər üzrə nazir Leonard Petrosyanı, deputatlar Armenak Armenakyanı, Henrix Abramyanı və Mikael Kotanyanı güllələyib. Terrorçuların məhkəməsi 2001-ci ilin fevral ayında başlayıb və 2003-cü ilin dekabr ayına qədər davam edib. Altı terrorçu, o cümlədən qruplaşmanın rəhbəri Nairi Unanyan, onun qardaşı Karen Unanyan, onların dayısı Vram Qalstyan, həmçinin Derenik Becanyan, Edik Qriqoryan və Aşot Knyazyan ömürlük həbs cəzasına məhkum ediliblər. Adları çəkilənlərin hamısı vətənə xəyanətdə, terrorçuluqda, xüsusilə təhlükəli dövləti cinayətlərin törədilməsində ittiham edilib.

Maraqlıdır ki, Vazgen Sarkisyanın qardaşı Aram Sarkisyan da məsələdə məhz Putini ittiham edir: "Birmənalı olaraq bu hadisənin üstünün açılması üçün manеə var. Və mən birmənalı şəkildə indiki hakimiyyətin də, dövlətin də imkanlarını, məntiqi nəzərə alıram. Ona görə də hakimiyyətin dəyişməsindən sonra öz müsahibələrimdə əsasən bu mövzudan yan keçməyə çalışmışam, onu qaldırmamışam". Sarkisyanın sözlərinə görə, 27 oktyabr cinayətinin üstü ancaq Rusiyada hakimiyyət dəyişəndən sonra açıla bilər. O, həmin hadisəni 2008-ci ilin 1 mart hadisələri ilə müqayisə edib. Deyib ki, 1 mart hadisələrinin üstü ancaq 11 il sonra, Robert Köçəryanın və Serj Sarkisyanın hakimiyyətinin devrilməsindən sonra açılıb: "2024-cü ildən sonra Rusiyada Vladimir Putin prezident olmayacaq. Hesab edirəm ki, Stalini Xruşşovun, Brejnevi Qorbaçovun əvəz etməsi kimi, Rusiyada da yeni ideyalar, baxışlar meydana çıxacaq. Və Rusiya o zaman özü Litvinenko, Berezovski və digər bu kimi işlərlə bağlı arxivlərin açılmasına qarşı olmayacaq". Aram Sarkisyanın sözlərinə görə, hətta 1 mart işində də Rusiya hakimiyyəti bu iş üzrə həbs edilmiş Robert Köçəryana dəstəyini gizlətmir: "Təsəvvür edin ki, hakimiyyət Rusiya xüsusi xidmət orqanlarının nümayəndəsi Litvinenkonun 1999-cu il oktyabrın 27-də törədilmiş terror aktının QRU-nun diversiya qrupu tərəfindən təşkil edildiyi haqda versiyasını yoxlamağa cəhd edir. Ruslar bunu Ermənistan tərəfindən elan edilmiş müharibə kimi qarşılayar, bu halda isə nəticəsi dövlət, xalq, hakimiyyət üçün çox ağır olar". Hesab edilir ki, Paşinyanın Rusiya, o cümlədən Putinə qarşı bu addımları Moskva tərəfindən cavabsız buraxılmayacaq və Kreml mövcud iqtidarı yenisi ilə əvəzləməyə çalışacaq.

***Nahid SALAYEV***

# Sudanın prezidenti Ömər əl-Bəşir devrildi...

## *Rusiya "...qəbuledilməzdir" dedi*



**Sudanda həftələrdir davam edən etirazların ardından ordu bu gün hakimiyyəti ələ keçirib. Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, ilk olaraq ordu dövlət televiziyasının binasını mühasirəyə alıb, bir qrup hərbçi binaya daxil olub.**

"Reuters" prezident Ömər əl-Bəşirin istefa verdiyini bildirir. Dövlət televiziya kanalı "Al Mayadeen" də ordunun prezident Ömər əl-Bəşir və hökumətin səlahiyyətlərinin əlindən alındığını və hökumətin buraxıldığını elan edib. Prezident iqamətgahı hərbçilər və zirehli texnika ilə mühasirəyə alınıb.

Məlumata görə, hərbi çevrilişdən dərhal sonra ölkədə kütləvi həbslər başlayıb. Ordu hakim Milli Konqres Partiyası liderlərinin həbsinə başlayıb, partiyanın 100-dən çox üzvü isə ölkə xüsusi xidmət orqanları tərəfindən saxlanıb. Saxlananlar arasında partiyanın sədri və keçmiş müdafiə naziri Abdurrahim Muhammed Hüseyn də var. Bütün ölkə ərazisində uçuşlar dayandırılıb.

Sonradan açıqlama verən Sudan müdafiə naziri Avad bin Avf prezident Ömər əl-Bəşirin həbs olunduğunu, təhlükəsiz bir yerdə saxlandığını deyib. Nazir ölkəni hərbi şuranın idarə edəcəyini, 3 ay boyunca ölkədə fövqəladə vəziyyət elan ediləcəyini, konstitusiyanın tətbiqinin dayandırıldığını və keçid dövründən sonra seçki keçiriləcəyini bildirib.

"Hökumətlə anlaşma yolları axtardıq, ancaq olmadı. Daha sonra xalqın da istəyilə müdaxilə etdik. Bütün hökumət rəsmilərini həbs etdik" - Sudan müdafiə naziri Avad bin Avf deyib.

Sudanın bütün ərazisində bir ay ərzində saat 19.00-dan sonra küçəyə çıxmaq qadağan edilib.

Ancaq sudanlı aktivistlər xalqı müdafiə naziri Avad bin Avfa qarşı nümayişləri davam etdirməyə çağırır. Sudandakı etirazçılar da ordunun bəyanatını rədd etdiklərini və aksiyaları davam etdirəcəklərini bəyan ediblər.

Sudan ordusunun hərbi çevriliş təşəbbüsünə dünyadan ilk reaksiya Rusiyadan gəlib. Rusiya Federasiyasının Beynəlxalq Əlaqələr Komitəsinin rəhbəri Konstantin Kosaçov "Sudanda konstitusiyaya zidd olaraq rejim dəyişikliyinin qəbuledilməz" olduğunu deyib.

Qeyd edək ki, 2018-ci ilin dekabrından Sudanda prezident Ömər Əhməd əl-Bəşirin istefası tələbi ilə etiraz aksiyaları keçirilir.

# Ermənilər hansı Marağadakı 100 erməninin 10 aprel soyqırımından danışırlar...

**Ermənilər öz çirkin niyyətlərinə uyğun olaraq, hər zaman Azərbaycana qarşı təbliğat aparırlar. Bu minvalla Azərbaycan barəsində həqiqətə uyğun olmayan məlumatlar yayırlar. Özləri təcavüzkar siyasət yeritmələrinə baxmayaraq, Azərbaycanı həyasızcasına təcavüzdə ittiham edirlər.**



*"Qarabağa gəlmə olduqlarının izini itirmək məqsədilə həmin abidəni məhv etdilər"*

Erməni mətbuatının yazdığına görə, guya Dağlıq Qarabağ münaqişəsi başlayandan sonra Azərbaycan orada yaşayan dinc ermənilərə qarşı soyqırım həyata keçirib və bunlardan biri də 1992-ci il aprelin 10-da Ağdərənin Marağa kəndində yaşanıb. Guya Azərbaycan hərbçiləri 1992-ci il aprelin 10-da kəndi ələ keçirərkən dinc insanları qətlə yetiriblər, oradakı evlər yandırılıb və s. Bu səbəbdən hər il ermənilər aprelin 10-u tarixini xüsusi qeyd edirlər və belə təəssürat yaratmaq istəyirlər ki, guya həmin günü kənd sakinləri qırğına məruz qalıblar.

## *Məhərrəm Zülfüqarlı: "Ermənilərin Marağada azərbaycanlıların soyqırım törətməsi barədə dedikləri cəfəngiyyatdır"*

Ancaq reallıqda 1992-ci ildə Ermənistan Azərbaycana qarşı soyqırım siyasəti həyata keçirib. Fevralın 17-də Qaradağlı kəndi işğal edildi və nəticədə onlarla dinc sakin qətlə yetirildi. Ondan sonra, fevralın 26-da Xocalı soyqırımı həyata keçirildi. Nəticədə 613 nəfər qətlə yetirildi. Ümumiyyətlə, 1988-ci ildə münaqişə başlayandan sonra Ermənistan işğalçı qüvvələri Azərbaycan kəndlərində soyqırım həyata keçiriblər.

Bütövlükdə, ermənilərin Marağa kəndi ilə bağlı uydurmalarının kökündə nə dayanır və səslənən iddialar nə dərəcədə realdır?

**Məsələyə aydınlıq gətirən tarix elmləri doktoru, professor Məhərrəm Zülfüqarlının sözlərinə görə, ermənilərin sözügedən kəndlə bağlı dedikləri uydurmadır:** "Bununla bağlı bəzi tarixi məqamları qeyd etmək lazımdır. Məsələ ondadır ki, ermənilərin Azərbaycana kütləvi şəkildə köçürülməsi 1828-ci ildə imzalanan Türkmənçay müqaviləsindən sonra başlayıb. Həmin müqavilədə belə bir bənd var ki, təəbələrin maneəsiz köçürülməsi. Burada məqsəd xristian ermənilərini Azərbaycana köçürmək idi. Ona görə ki, müsəlmanları nəzarətdə saxlasınlar. 1828-ci ildə Rusiya Şimali Azərbaycanı işğal etdikdən sonra 200 erməni ailəsi Cənubi Azərbaycanın Marağa bölgəsindən Qarabağa köçürüldü. Onlar məskunlaşdıqları ərazini gəldikləri yerlə bağlı olaraq Marağa kəndi adlandırdılar. Sonralar kəndin adı erməniləşdirilərək Marağaşen oldu. 1954-cü ildə kənd Leninin şərəfinə Leninavan kimi rəsmiləşdirildi. 1978-ci ildə həmin ailələrin Marağadan köçüb gəlməsinin 150 illiyi ilə əlaqədar kənd ərazisində abidə ucaldıldı. 1988-ci ildə Ermənistanın Azərbaycana təcavüzü başlandıqdan sonra ermənilər Qarabağa gəlmə olduqlarının izini itirmək məqsədilə həmin abidəni məhv etdilər. Ancaq bu abidənin şəkilləri var. Bu da sübut edir ki, ermənilər bu ərazilərə gəlmədir və onları bura köçürüblər. 1992-ci ilin 10 aprelində Azərbaycan Ordusu orada dinc əhaliyə qarşı soyqırım aparmayıb. Bu, ermənilərin uydurmasıdır. Azərbaycan Ordusu 1992-ci ilin yayında kəndi işğaldan azad edib. Ondan sonra kəndə Şıxarx adı verilib. Ermənilərin Marağada azərbaycanlıların soyqırım törətməsi barədə dedikləri cəfəngiyyatdır".

***Vidadi ORDAHALLI***

# Çavuşoğludan ABŞ-a ikinci S-400 mesajı... Bir açıqlama da Rusiyadan gəldi - "Hazırıq"

**ABŞ Türkiyəyə "Patriot" sistemləri satmazsa sabah biz ikinci bir S-400 də ala bilərik. Baki-xeber.com xəbər verir ki, bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu deyib.**

Nazir deyib ki, F-35 döyüş təyyarələri Türkiyəyə təslim edilməyəcəyi halda Ankara bu sahədəki ehtiyacını başqa ölkədən qarşılayacaq.

ABŞ-a səfəri zamanı keçirilən görüşlərdə Türkiyənin S-400 raketdən müdafiə sistemləri almasının səbəblərini Amerika rəsmilərinə izah ediyini deyən M.Çavuşoğlu bunun NATO üzvlüyünə zidd olmadığını deyib.

Çavuşoğlu alyansa üzv bəzi ölkələrdə S-300-lərin olduğunu xatırladıb. "ABŞ-a ekspertlərdən ibarət bir araşdırma qrupunun yaradılmasını, S-400-lərin F-35-lər və NATO üçün təhdid hesab olub-olmadığını araşdırmasını təklif etdik. Türkiyənin nəzarətində olacaq bir sistem necə ola bilər ki, NATO üçün təhdid yaratsın? Türkiyə suverən bir ölkə olaraq öz qərarlarını özü verməkdə davam edəcək. ABŞ hər fürsətdə sanksiyalardan danışır. Belə açıqlamalar və YPG/PKK terror təşkilatına dəstək müttəfiqlik əlaqələrinə zərbə endirir. Bunlardan imtina edilməlidir. ABŞ Dövlət Departamentinin rəhbəri Mayk Pompeo ölkəsinin Türkiyəyə "Patriot" satmaq məcburiyyətində olmadığını deyir. Bizim buna etirazımız yoxdur, satarsa alarıq. Əks təqdirdə başqa S-400-lər ya da başqa havadan müdafiə sistemlər ala bilərin. Ehtiyacımız olan silahları satın almaq məcburiyyətindəyik. Yaşadığımız bölgədə hər şeyin qaydasında olduğunu iddia etmək səhv olar"- Çavuşoğlu bildirib.

Çavuşoğlunun ikinci S-400 açıqlamasına Rusiyadan da reaksiya gəlib. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib ki, Moskva Ankara ilə hərbi-texniki sahədə əməkdaşlığı genişləndirməyi mümkün hesab edir və buna açıqdır.



"Bilirsiniz ki, hərbi-texniki əməkdaşlıq Rusiyanın bir çox xarici ölkələrlə qarşılıqlı əməkdaşlığının vacib tərəfidir. Belə bir əməkdaşlığın həyata keçirilməsi, əlbəttə, ikitərəfli münasibətlərin inkişafının xüsusi səviyyəsini göstərir. Bu, eyni zamanda Türkiyəyə də aiddir. Rusiya açıqdır, Rusiya müvafiq imkanlara, texnoloji bacarıqlara malikdir. Və əlbəttə ki, Rusiya hərbi-texniki əməkdaşlıq imkanlarını genişləndirmək üçün fürsət axtarır. Bu tamamilə normal prosesdir" - deyə Peskov bildirib.

Bundan əvvəl Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan, Rusiya ilə S-500 zenit raket komplekslərinin alınmasına dair müqavilənin bağlanması istisna etməyib. Türkiyə lideri vurğulayıb ki, S-400 zenit raketləri ilə bağlı müqavilə artıq bağlanıb və geri addım atıla bilməz.

Qeyd edək ki, martın 6-da ABŞ Dövlət Departamenti Türkiyəni sanksiyalarla hədələyib. Belə ki, Birləşmiş Ştatlar Rusiyadan S-400 alarsa, Türkiyəyə sanksiyalar tətbiq edəcəklərini açıqlayıb.

ABŞ Dövlət Departamentinin mətbuat katibinin müavini Robert Palladino isə ölkəsinin S-400 məsələsində mövqeyinin dəyişməдиyini və Türkiyənin Rusiyadan bu sistemləri almaq cəhdinin ABŞ-ı ciddi şəkildə narahat etdiyini dilə gətirib: "Havadan müdafiə sistemi məsələsində Türkiyə ilə bərabər işləməyə hazırıq və Türkiyənin qiymətləndirməsi üçün "Patriot" və digər sistemləri təklif edirik. Türkiyənin S-400 alması Ankaranın "F-35" qırıcılarının 5-ci nəsil proqramının yaradılmasında iştirakına yenidən baxmağımıza səbəb olacaq. Bundan əlavə, gələcəkdə Türkiyəyə silah tədarükü imkanları sual altına düşəcək".

***TAHİR***

# Ermənistandan Putinə iki rəsmi həmlə - Parlamenti güllələtdi, "Rossiya" televiziyası məhdudlaşdırılsın...

**Ermənistanda Rusiya əleyhinə sərt bəyanatlar səslənməyə başlayıb. Ən maraqlısı budur ki, analoji bəyanatlar hansısa müstəqil siyasi partiyalar tərəfindən deyil, Paşinyanın parlamentdəki silahdaşlarının dili ilə dövriyyəyə buraxılır.**

*"Bunun Ermənistan - Rusiya münasibətlərinə birbaşa təsiri var"*

Bu xüsusda söylənilən iki mühüm bəyanata xüsusi diqqət yönəltmək istərdik.

Ermənistan Milli Şurasının Müdafiə və təhlükəsizlik məsələləri üzrə daimi komissiyasının genişləndirilmiş iclasında sensasiyalı informasiya yayılıb. Erməni KİV-inin verdiyi məlumata görə, komissiyanın iclasında bildirilib ki, 27 oktyabr 1999-cu ildə İrəvanda baş vermiş hadisələr Rusiyanın xüsusi xidmət orqanları tərəfindən Vladimir Putinin əmrilə həyata keçirilib.

Həmin hadisələr zamanı parlamentin spikeri Karen Demirçyan və baş nazir Vazgen Sarkisyan öldürülmüşdü. Hadisələrin müzakirəsinə həsr edilmiş iclas zamanı Ermənistanın baş naziri Nikol Paşinyanın silahdaşı, iqtidar partiyasından millət vəkili, Müdafiə və təhlükəsizlik məsələləri üzrə parlamentin daimi komissiyasının sədri Andranik Koçaryan sensasiyalı bəyanatla çıxış edib:

"Oktyabr ayının 27-də törədilən cinayətin üstü açılıb. Sifarişçilər məlumdur. Bu, Rusiyanın xüsusi xidmət orqanları tərəfindən Vladimir Putinin əmrilə həyata keçirilib".

Bunun ardınca Ermənistanın hakim "Mənim addımım" fraksiyasının deputatı Narina Tuxikyan Rusiya kanallarının ölkədə yayımının məhdudlaşdırılması məsələsini qaldırıb.

Ermənistan KİV-i xəbər verirlər ki, deputat xüsusən "Mir", "ORT" və "Rosiyya 1" kanallarının yayımının dayandırılmasını tələb edib. N.Tuxikyan həmin kanalların Ermənistan əleyhinə fəaliyyətindən narahatlığını dilə gətirib, onların ölkə əleyhinə siyasi çağırışlar etdiyini söyləyib.

Radio və televiziya verilişləri üzrə Milli Komissiyanın sədri Tiqran Akopyan kanalların bağlanması məsələsinin hazırda gündəmdə olmadığını, lakin Ermənistanın informasiya təhlükəsizliyini təhdid etdiyini bildirib.

Deməl olar ki, Ermənistanın tam rəsmi mövqeyini əhatə edən bu iki bəyanatdan hansı nəticələri çıxarmaq olar və bunun Rusiya-Ermənistan münasibətlərinin gələcəyinə nə kimi təsiri olacaq?

**Politoloq Fikrət Sadıqov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bunun Ermənistan - Rusiya münasibətlərinə birbaşa təsiri var:** "Başqa sözlə desək, bununla Ermənistan hakimiyyətindəki Rusiyaya bəslənən münasibət açıq formada özünü büruzə vermiş olur. Bu, birmənalı olaraq, Moskvaya endirilən zərbədir. Onlar hakimiyyətə gələndə, mitinqlərdə etdikləri çıxışlarda romantik ab-hava ilə yaşayırdılar. Hakimiyyətə gələndən sonra isə görürlər ki, burada romantika yox, real addımlar tələb edilir. Paşinyan rəsmi şəxsdir. Başa düşür ki, Rusiya ilə münasibətləri normal şəkildə saxlamasa, məhvə məhkumdur. Ancaq hakimiyyətə birbaşa məsuliyyət daşımayan şəxslər vasitəsilə belə bəyanatların səsləndirilməsini təşkil edir. Başqa bir versiya da ola bilər ki, bu, Paşinyanın iradəsi xaricində baş verir. Yəni komandası ona bu yolla mesaj verir ki, bizimlə hakimiyyətə gəlibsənsə, biz deyəni etməlisən. Daha dəqiqi, ondan Rusiyaya arxa çevirməyi tələb edirlər. Çünki səslənən bəyanatlarda heç bir siyasi üsulla pərdələmə yoxdur. Birbaşa deyirlər ki, Putin terror törətməyə göstəriş verib. İndi Paşinyanın özü götürqoy etməlidir. Hər iki halda onun vəziyyəti pis olacaq. Hakimiyyətə yeni gələndə o, elə başa düşürdü ki, nə istəsə, onu edə bilər. Zənn edirdi ki, asanlıqla Rusiya ilə münasibətləri pozacaq, Azərbaycanla danışıqlarda separatçıları tərəf kimi əyləşdirəcək və s. Bununla bir daha görünür ki, siyasi rəhbərliyin nə təcrübəsi, nə də biliyi var. Əslində, mən çox şadam ki, Ermənistan parlamentində belə şüarlar səslənir. Qoy, Moskva bunu diqqətlə izləyib, özü üçün nəticə çıxarsın".

***Fikrət Sadıqov:** "Əslində, mən çox şadam ki, Ermənistan parlamentində belə şüarlar səslənir"*



***Məhəmmədəli QƏRİBLİ***

# Trampın SEPAH qərarı və Azərbaycan - İran hərbi əməkdaşlığının mümkün zədələnmə ehtimalı...

**Məlum olduğu kimi, ABŞ Prezidenti Donald Tramp İran İslam İnqilabı Keşikçiləri Korpusunu (SEPAH) terror təşkilatı elan edib. Bununla da ABŞ hökuməti tarixində ilk dəfə başqa bir ölkənin rəsmi güc strukturunu - ordusunu terror təşkilatı olaraq tanıyıb.**

*"Azərbaycanla İran arasında hərbi əməkdaşlıq var, amma silah alveri yoxdur"*

Prezident Trampın bu addımı Vaşinqtona dost olmayan ölkələrin ABŞ ordusu və təhlükəsizlik qüvvələrinə qarşı analoji addım ata bilmələrinə şərait yaratdığı səbəbindən ölkə daxilində sərt tənqid edilir.

Qeyd edək ki, ABŞ ötən ayın sonunda İran İslam İnqilabı Keşikçiləri Korpusunu, eləcə də SEPAH-a bağlı bəzi şəxslər və qurumları "qara siyahı"ya salıb. İslam İnqilabı Keşikçiləri Korpusu İran İslam Respublikasının Silahlı Qüvvələrinin ən böyük qoşunudur. Xalq içində və xüsusilə İran diasporunda orduya mənsub insanlara təşkilata olan heyranlıqlarını bildirmək üçün farsca keşikçi mənasını verən "Pasdaran" deyilir. İslam İnqilabı Keşikçiləri Korpusuna qısaca SEPAH deyilir.

SEPAH 5 may 1979-ci ildə dini lider Ayətullah Xomeyni tərəfindən yaradılıb. İran Konstitusiyasına uyğun olaraq, daxili sabitliyin təmin edilməsi, inqilabın qorunması və "azğınlığın" qarşısının alınması üzrə vəzifələri həyata keçirir. İnqilab keşikçilərinin quru, hava və dəniz qoşunlarında, ümumilikdə, 125 000 şəxsi heyət xidmət edir. İnqilab keşikçilərinin dəniz qoşunları Fars körfəzində hərəkətə nəzarəti təmin etmək vəzifəsi verilmiş ilk qoşundur.

O da məlumdur ki, Azərbaycanla İran arasında hərbi sahədə müəyyən əməkdaşlıq var. Zaman-zaman iki ölkənin güc nazirləri arasında görüşlər keçirilir. Eyni zamanda, iki ölkənin sərhəd xidməti əməkdaşlıq edir. Adətən, ABŞ hansısa ölkəyə qarşı sanksiya tətbiq edəndə istəyir ki, digər ölkələr də buna qoşulsunlar. Bu baxımdan, Trampın SEPAH-la bağlı məlum qərarının İran-Azərbaycan hərbi əməkdaşlığına hansısa təsiri ola bilərmi?

**Məsələyə münasibət bildirən hərbi ekspert Azad İsazadənin sözlərinə görə, bunun Azərbaycana elə də təsiri olmayacaq:** "Elə bir mühüm təsiri olmasa da, bəzi təsirləri ola bilər. Çünki hərbi əməkdaşlıq geniş bir anlayışdır. Görürsən hərbi attaşelər bir-birilə görüşür, hansısa məsələdə birgə fəaliyyət göstərirlər. Bu da hərbi əməkdaşlıq sayılır. Hesab edirəm ki, buna heç bir aidiyyəti olmayacaq. Tutaq ki, Azərbaycan hərbçiləri İranda təhsil alsa, buna da elə bir təsiri olmayacaq. Ancaq İrandan silah alsaq, o zaman buna təsiri olar. İranla hərbi əməkdaşlıq məsələsində silah alveri ilə bağlı problem yarana bilər. Ancaq məsələ ondadır ki, Azərbaycan İrandan o qədər də hərbi məhsul almır. Silah, ümumiyyətlə, almır, sursat isə bəlkə də hansısa formada alınır.

**Yəni Azərbaycanla İran arasında hərbi əməkdaşlıq var, amma silah alveri yoxdur. Ona görə də silah baxımından problem olmayacaq. Çünki silah alış-verişi yoxdur. SEPAH-ın Tramp tərəfindən terrorçu təşkilat hesab olunmasının Azərbaycana heç bir aidiyyəti yoxdur".**

***Azad İsazadə:** "Elə bir mühüm təsiri olmasa da, bəzi təsirləri ola bilər"*



***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Tonoyanın "müharibə ilə yeni ərazilər" bəyanatına Ermənistanda sərt etirazlar - "Səhv buraxıb"...

**Ermənistanın siyasi dairələrinin son günlər səsləndirdiyi ziddiyyətli bəyanatlar bu ölkənin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı sülhə xidmət edən addımlar atmaqdan hələ də çox uzaq olduğunu göstərir. Ən azı o baxımdan ki, Ermənistan rəsmilərinin dedikləri ilə əməlləri hələ də əvvəlki kimi bir-biri ilə ciddi ziddiyyət təşkil edir.**

Digər tərəfdən, vəziyyətin təhlili erməni rəsmiləri arasında Qarabağ məsələsinəd yekdil mövqe və siyasətin olmadığını da üzə çıxarır. Məsələn, Strasburqda keçirdiyi mətbuat konfransında Ermənistanın baş naziri Nikol Paşinyan yenidən bildirir ki, biz xalqlarımızı sülhə hazırlamalıyıq: "Ermənistanla Azərbaycan arasında yeni vəziyyətə qədəm qoymalıyıq". Amma Ermənistanın müdafiə naziri David Tonoyan bu durumda fərqli mövqe sərgiləyərək Azərbaycanın yeni ərazilərinin işğal ediləcəyi ilə bağlı sərsəm fikirlər səsləndirir.

Ekspertlər hesab edir ki, hazırda Ermənistanda Qarabağ münaqişəsi ilə bağlı dilemma hökm sürür və hakimiyyət vahid siyasət yürütməkdə çətinlik çəkir. Bu vəziyyət davam edəcəyi təqdirdə isə savaş ehtimalı əhəmiyyətli dərəcədə artır. Artıq Bakı bu məsələdə kifayət qədər açıq mövqe sərgiləyib və onu da xüsusi vurğulamaq lazım gəlir ki, Azərbaycan tərəfinin verdiyi bəyanatlar Ermənistanda çox ciddi narahatlıqlar yaradır. Burada onu da xatırladaq ki, məlum Vyana görüşündən sonra Prezident İlham Əliyev "müharibə hələ bilməyib" bəyanatı verdi. Ardınca müdafiə naziri Zakir Həsənov bildirdi ki, " ermənilər hücuma keçəcəksə, Tonoyanla İrəvanda görüşəcəm". Məhz bu fikirlər ermənilərin ciddi qorxularına səbəb olub. Ermənistan mediası artıq bir neçə gündür "Həsənov Tonoyanla İrəvanda görüşəcək" fikirlərini şərh edir, "Tonoyan Həsənovu İrəvanda qarşılamağa hazırdırmı" sualı üzərində müzakirələr aparırlar. Müzakirələr, xüsusilə erməni hərbi birləşmələrinin döyüş qabiliyyətinin zəifliyi fonunda qurulur. Erməni şərhçi Aram Sarkisyan yazır ki, Ermənistan ordusundakı problemlər təcili şəkildə həll olunmalıdır: "Bu gün orduda problemlər hələ də qalır. Mövcud vəziyyət ordunun müharibə aparması üçün adekvat deyil. Buna görə də Tonoyan indidən Həsənovu İrəvanda necə qarşılayacağı haqda düşünməlidir".

Ordusunun durumundan yaxşı xəbərdar olan ehtiyatda olan general-mayor, Ermənistan ictimai şurasının üzvü Arkadi Ter-Tadevosyan da İrəvanın Bakını savaşla hədələməsinin anlaşılmaz olduğunu qeyd edir: "Mənim fikrimcə, David Tonoyanın bəyanatı səhvdir. Müdafiə naziri əsgərdir, icraçıdır, nə əmr edilərsə, onu da yerinə yetirməlidir. Mən onun bəyanatını başa düşə bilmirəm, bəlkə mən səhv edirəm?. Bir neçə il əvvəl daim deyirdim ki, bizim hücum etmək ixtiyarımız var, amma zaman elədir ki, öz və rəqib qüvvələrinin səviyyəsini bilməliyik. İndi müdafiə xəttində möhkəm oturmuşuq, yalnız mən anlamıram ki, necə hücum etmək, zərbə endirmək olar. Ancaq bağışlayın, təkcə bizim resurslarla, bizim ordu ilə hücum edə bilmərik. Burada diplomatiya işləməlidir". Onun sözlərinə görə, erməni diplomatiyası zəifdir, ordu və diplomatiya arasında əlaqə yoxdur.

Erməni şərhçi Qalust Qriqoryan isə, təkcə diplomatiya yox, ordunun da çox zəif olduğunu vurğulayır. O bu xüsusda hətta erməni ordusunda baş verən çoxsaylı yeni biabırçı faktlar da açıqlayıb:"Ordumuzun son illərdə xeyli zəifləməsi açıq-aşkar olan faktdır. Bunun birinci səbəbi ordudan yayınma hallarının artmasıdır. Son illərdə Ermənistan cəmiyyətində silahlı qüvvələrin nüfuzu sürətlə düşür. Çoxsaylı əsgər ölümləri təkcə ön cəbhədə yox, həm də arxada, döyüşün getmədiyi yerlərdə də qeydə alınır. Zabitlərin əsgərləri təhqiri, genişmiqyaslı korrupsiya, "dedovşina", normal qidalanma və geyimin yoxluğu, xüsusilə alt paltarlarının çatışmazlığı və digər hallar erməni gənclərinin ordudan qaçmasına səbəb olub. Bütün bunların fonunda erməni generallarının dəbdəbəli həyat tərzi qıcıq yaradır. 2016-cı ilin "aprel müharibəsi"ndə çoxlu erməni əsgərinin ölümünü də əlavə etsək, erməni gənclərinin belə orduda xidmət etmək istəməməsi təbiidir. Hansı ailənin imkanı varsa övladlarını orduya göndərmir, yaxud da arxa cəbhədəki "elit" hərbi hissələrə göndərirlər. Bütün bunlara görə erməni gənclər, hətta ordudan yayınmağın çıxış yolu kimi, gey olmaqdan da çəkinmirlər, çünki homoseksuallar hərbi xidmətdən azaddır. 2003-cü ildə Ermənistanda homoseksuallığa görə cinayət təqibinin ləğv edilməsi, 2008-ci ildə seksual oriyentasiya və gender bərabərliyi haqqında BMT Bəyannaməsinin imzalanması da buna geniş imkanlar yaradır. Təbii ki, hərbi komissarlığı və tibb komissiyasını aldatmaq elə də asan deyil, lakin bu, hərbi xidmətə getməmək qərarı verən cavan oğlanları dayandırmır. Onlar hərbi xidmətə getməmək və həlak olmamaq üçün hər şeyə hazırdırlar". Qalustyan Ermənistanda homoseksualların sayının artmasının ikinci səbəbinin Avropada qaçqın statusunu almaq olduğunu yazır: "Ölkədə ictimai-iqtisadi vəziyyətin yaxşılaşması perspektivi yoxdur. Erməni cəmiyyətində homofobiyanın güclü olması, LGBT nümayəndələrinin diskriminasiyaya məruz qalması, geylərin fiziki təhdidlərə məruz qalması, ata evindən qovulması kimi hallar cinsi azlıqların nümayəndələrinin və özlərini bu zümrəyə aid edənlərin əlini gücləndirir. Belə şəxslər Qərb ölkələrində asanlıqla qaçqın statusu ala bilir. Ölkədən qaçmaq istəyən gənclərin sürətlə homoseksualizmə üz tutmasının səbəblərindən biri də budur". Qalustyan belə bir orduya malik Ermənistanın Azərbaycanı savaşla hədələməsinin sadəcə acı gülüş doğurduğunu da açıq şəkildə vurğulayır.

Digər tərəfdən, əvvəlki kimi Ermənistan ordusunda hərbi qulluqçuların müəmmalı ölümü və yaralanması, rüşvətxorluq, xidmət yerindən qaçma, xidmətdən xəsarət yetirmə kimi müxtəlif hadisələr qeydə alınır ki, bu da əsgər valideynlərinin kəskin etirazlarına səbəb olmaqdadır. Bundan başqa, orduda özbaşınalıq, komandanlıq tərəfindən tabelikdə olan şəxsi heyətə ciddi nəzarətin təşkil olunmaması, vəzifələrinə səhlənkar yanaşma və səlahiyyətləri aşma, intizam cəzalarının düzgün verilməməsi, qarşılıqlı münasibətlərin nizamnamələrə uyğun qurulmaması da bir çox cinayətlərə yol açır ki, bu da Ermənistan ordusunun ənənəsinə, əsgər valideynlərinin isə baş bəlasına çevrilib. Daha bir səbəb isə övladlarının ölümü ilə bağlı valideynlərə doğru-düzgün məlumatların verilməməsidir ki, bu da müəmmalı şəraitdə ölən hərbçilərin valideynlərində bir çox cavabsız sualların yaranmasına zəmin yaradır. Övladlarını itirənlərin etirazına səbəb həm də hərbçinin ölümü barədə yayılan rəsmi məlumatların sosial şəbəkələrdə yazılanlarla, hərbçinin xidmət yoldaşlarının danışdıqları ilə və istintaq orqanlarının verdiyi məlumatlarla tam fərqli olmasıdır. Ermənistanda ajiotaja səbəb olan məsələlərdən biri də bu ölkənin silahlı qüvvələrində tüğyan edən rüşvətxorluq hallarıdır. Düşmən ordusunda istədiyi hər şeyə görə istər vətəndaşlar, istərsə də hərbi qulluqçular mütləq rüşvət vermək məcburiyyətindədir. Xidmət yerini dəyişmək, ön xətt mövqelərinə düşməmək, xidmətə yenidən qayıtmaq, rütbəni vaxtında almaq, başqa vəzifəyə keçmək, Dağlıq Qarabağdan Ermənistanda olan hərbi hissəyə keçirilmək, hətta normal yeməklə təmin olunmaq üçün belə hərbçilərdən rüşvət tələb olunur. Rüşvət verə bilməyənlər isə çıxış yolunu qaçmaqda görür. Xüsusən də işğal altında olan yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin hərbçiləri arasında xidmət yerindən özbaşına qaçma hallarının sayı artmaqda davam edir. Məsələn, erməni mediasının məlumatına əsasən, 2018-ci ilin 2-ci yarısında orduya çağırılan Seryoja Nersisyan hələlik məlum olmayan səbəbdən xidmət yerini özbaşına tərk edib.

Digər bir xəbərdə isə bildirilir ki, hərbi hissənin tibb məntəqəsində stasionar müalicə alan hərbi qulluqçular Nareq Qaroyan və Gevorq Minosyan qaçıb. Hər üç hərbi qulluqçu düşmən ordusunun 5-ci dağ atıcı alayının əsgərləridir. Tibb məntəqəsindən qaçan hərbçilərin isə döyüldüyü iddia olunur. Erməni hüquq müdafiəçisi Janna Aleksanyan qeyd edir ki, orduda belə halların sayı yüzlərlədir: "İnqilaba baxmayaraq, Ermənistan Müdafiə Nazirliyi, prokurorluq və istintaq komitəsi keçmiş fəaliyyət tərzini davam etdirir. Yenə də işgəncə izlərini, orduda olan problemləri həll etmək əvəzinə gizlədir, bu barədə məlumatları ictimailəşdirəni susdurur".

Belə vəziyyətdə, Helsinki Vətəndaşlıq Assambleyasının Vanadzor ofisinin yaydığı məlumata əsasən, 2017-ci illə müqayisədə 2018-ci ildə atəşkəs rejiminin pozulması nəticəsində ölüm halları 3 dəfə azalsa da, səhhətinə görə ölüm halları 40%, yol qəzalarında ölüm halları isə 2 dəfə artıb. Onu da qeyd edək ki, bəzi erməni komandirlər baş vermiş cinayətləri, hərbi hissədə olan ölüm faktlarını bədbəxt hadisə kimi sənədləşdirməklə özlərini cinayət məsuliyyətindən yayındırırlar. Bu isə hadisələr zamanı xəsarət alan hərbi qulluqçuların və onların ailə üzvlərinin avtomatik sığorta pulları, kompensasiyalar, yardımlar və yaxud digər müavinətlər almaq imkanlarının üzərindən birdəfəlik xətt çəkir. Təbii ki, belə hallar Ermənistan cəmiyyətində və hərbçi ailələrində ordu rəhbərliyinə qarşı etirazların çoxalmasına səbəb olur. Hətta işğal olunmuş Azərbaycan torpaqlarında yerləşdirilən hərbi hissələrdə vəziyyət o dərəcədə acınacaqlıdır ki, Müdafiə Nazirliyi və hissə komandirləri hər vəchlə valideynləri əsgərlərdən, onların xidmət yerlərindən maksimum təcrid etməyə çalışırlar.

Məhz bu vəziyyətdə erməni cəmiyyətində belə bir fikir formalaşır ki, Azərbaycanla savaşmaq əvəzinə onunla sülhə gəlmək daha məqsədəuyğun olardı. Erməni mediası isə yaranmış vəziyyətdə hakimiyyəti daha diqqətli olmağa və hərtərəfli düşünməyə çağırır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Aparılan hesablamalar göstərir ki, qarşıdakı 5 ildə Azərbaycanda nağdsız ödənişlər 52 milyard manatadək artacaq. Həmin müddət ərzində isə nağd iqtisadiyyatın çəkisinin 34 faiz azaldılması planlaşdırılır. Hökumətin nağdsız ödəmələrin genişləndirilməsi istiqamətində atdığı addımlar nəticəsində artıq son 3 ildə milli ödəniş sistemi üzrə aparılan dövriyyə 79 faiz artaraq 274 milyard manat olub.**




# "Visa" və "MasterCard" Azərbaycan banklarına tələb qoydu - təmassız kart...

Həmin dövrdə kart ödənişlərində nağdsız dövriyyə isə 136 faiz artaraq 2,8 milyard manata çatıb. Amma qarışdakı dövr ərzində bu prosesin miqyasının daha da artması üçün indidən müvafiq addımlar atılır.

Qeyd edək ki, son illərdə sahibkarla fiziki və hüquqi şəxslər arasında hesablaşmalarda nağdsız əməliyyatların xüsusi çəkisi xeyli artıb. Buna qanunvericilikdə birbaşa və dolayı tələblərin qoyulması ilə nail olunsa da, hökumət bu sahədə əlavə stimullaşdırıcı addımlar atmaqla daha yüksək nəticənin əldə olunmasına çalışır. Vergi Məcəlləsində edilmiş dəyişikliklərə əsasən stimullaşdırıcı alət kimi bir sıra vergi güzəştlərinin tətbiq edilməsi də elə bundan irəli gəlir. Verilmiş güzəştlər isə pos-terminal vasitəsilə ödənişi qəbul edənlərə aid edilir. Məqsəd həmin şəxslər üçün stimulun yaradılması, nağdsız ödəmələrin ən çox "axsadığı" sahədə - pərakəndə ticarət və ictimai iaşə sahələrində nağdsız ödəmələrin həcmini artırmaq, sahibkarları pos-terminallar tətbiq etməyə stimullaşdırmaqdır.

Artıq bunun nəticəsidir ki, pərakəndə ticarət və ictimai iaşə sahələrində pos-terminalların tətbiqinin, nağdsız ödəmələrin həcm və dövriyyəsinin artması qeydə alınır. Bu isə büdcə daxilolmalarının artımında əksini tapır. "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nda əksini tapan vəzifələrin icrası da prosesi əhəmiyyətli dərəcədə sürətləndirməkdədir. Azərbaycan Banklar Assosiasiyasının prezidenti Zakir Nuriyev bütün bunların çox mühüm əhəmiyyət kəsb etdyini vurğulayır: "Qlobal trendlər onu göstərir ki, dünyada bankçılıq fəaliyyətində rəqəmsallaşma və nağdsız iqtisadiyyat quruculuğu istiqamətində çox sürətli proseslər gedir. Nağdsız iqtisadiyyatın inkişafı bank-maliyyə sektorunun dayanıqlığı və onun resurs bazasının gücləndirilməsi deməkdir. Bu da, öz növbəsində, xərcləri azaltmaqla banklar tərəfindən göstərilən xidmətlərin əlçatanlığını artırır, onların investisiya imkanlarını genişləndirir və iqtisadiyyata kredit qoyuluşlarının artımını sürətləndirir. Məlumdur ki, bu istiqamətdə ölkəmizdə də geniş miqyaslı işlər aparılır. Dövlət Proqramı ölkənin nağdsız iqtisadiyyata transformasiyasının yeni və daha sürətli mərhələsinin başlanğıcını qoyub. Yüksək səviyyədə hazırlanmış olan bu Dövlət Proqramı ölkədə rəqəmsal ödənişlərin institusional mühitinin təkmilləşdirilməsi, bank sisteminin canlandırılması, sağlamlaşdırılması, digər çoxsaylı prioritetləri özündə birləşdirir".




Bu arada isə məlum olub ki, nağdsız ödəmələrin həcminin genişləndirilməsi üçün bank sektorunda daah bir mühüm addım atılmaqdadır. Belə ki, "VISA International" və "MasterCard" Azərbaycan banklarına tamamilə təmassız kartlara keçidlə bağlı tələb qoyub. Tələbə görə, 2021-ci ilədək ölkədə olan bütün banklar müştərilərinə təmassız plastik kartlar təqdim etməlidir. "AzeriCard" MMC-nin departament direktoru Cahangir Məmmədov belə bir tələbin olduğunu təsdiqləyib: "Hazırda "AzeriCard"ın xidmətlərindən istifadə edən banklar bu məsələ ətrafında işləri davam etdirir". Onun sözlərinə görə, bütün banklarda bu proseslər gedir və artıq bir sıra bankların müştəriləri təmassız kartlara malikdir: "Düşünürəm ki, tələb olunan müddətin sonunda bankların hamısı müştərilərinə tamamilə təmassız kartlar təklif edə biləcək".

Məsələ ilə bağlı iqtisadçı-ekspert Samir Əliyev bildirir ki, informasiya texnologiyaları inkişaf etdikcə bankların funksiyaları və əhali üçün rahatlığı artır: "Bu gün Azərbaycanda plastik kartlar heç də hamısı eynicinsli deyil. Bəzi plastik kartlar ödəniş etmək üçün mütləq pos-terminala daxil edilməlidir və PİN-kod yığılmalıdır. Artıq yeni nəsil plastik kartlar var ki, onu pos-terminala daxil etməyə ehtiyac yoxdur. Yeni nəsil kartı pos-terminala yaxınlaşdırmaqla ödəniş etmək mümkündür. Azərbaycan bankları yeni nəsil kartlara keçməyə hazırdır. Artıq bir sıra banklarda təmassız plastik kartlardan istifadə təcrübəsi var".

Onun sözlərinə görə, yeni nəsil plastik kartların hazırlanması hər bir halda banklar tərəfindən sifariş verilir və bunun xərci onlar tərəfindən ödənilir: "Bunun xərci heç bir halda vətəndaşın üzərinə düşməyəcək. Əksinə bu, vətəndaş üçün rahatlıq yaradır. Banklar özləri də təmassız kartlara keçməkdə maraqlıdır. Belə ki, kartdan nə qədər çox istifadə edilsə, banklar bir o qədər gəlir götürür. Yeni kart vasitəsilə dövriyyənin yüksək olması bankın gəlirlərinin artmasına təsir göstərir. Düşünmürəm ki, təmassız kartlara keçiddə hər hansı bir problem yaranacaq, banklar bundan imtina edəcək və yaxud da böyük xərcə düşəcək. Getdikcə Azərbaycan bankları heç bir problem olmadan rahat şəkildə təmassız kartlara keçə bilər". O bildirib ki, xaricdə təmassız kartların payı getdikcə artır: "Gələcəkdə xarici ölkələrdə bizim köhnə kartlardan istifadə çətinlik yarada bilər. Azərbaycan bankları artıq təmassız kartlara keçməlidir və bir sıra banklar bunu edir".

Digər ekspertlər də vurğulayır ki, təmassız kartlar daha təhlükəsizdir və pos-terminala daxil etməyə ehtiyac yoxdur. Onu da bildirək ki, təmassız kartlara keçid vaxt itkisinin qarşısını alır və onlar digər kartlara nisbətən daha uzun müddət istifadə edilir. Çünki təmassız kartlarda kontakt olmadığı üçün zədələnmir.

**Onu da bildirək ki, yeni nəsil kartlardan təmaslı da istifadə etmək olar. Yəni yeni nəsil kartlarda təmaslı funksiyası da var və onları da, ehtiyac olarsa, posterminala daxil etmək olur. Beləliklə, görülən işlər qarşıdakı dövr ərzində yeni kartlar hesabına da nağdsız ödənişlərin miqdarının əhəmiyyətli dərəcədə artacağını göstərir.**

***Tahir TAĞIYEV***

**Azərbaycan 28 ildir dövlət müstəqilliyi qazanmasına baxmayaraq, bəzi istisnaları nəzərə almasaq, hələ də tarixi dövlətçiliyimizin formalaşmasında böyük rolu olan Azərbaycan şahları, hökmdarları haqqında bədii filmlər, seriallar çəkilməyib. Sovet dövründə Quba xanı Fətəli xan haqqında "Fətəli xan", son illər isə Gəncə xanı Cavad xanın həyatından, qəhrəmanlığından bəhs edən "Cavad xan" və Qarabağ xanı İbrahim xanla bağlı isə "Hökmdarın taleyi" bədii filmləri çəkilib.**

# Xətaidən, Qacardan, Nadir şahdan kino çəkilişinə İran mane olur?...

Dövlət müstəqilliyimizin ilk illərində kinorejissor Əbdül Mahmudbəyov Şah İsmayıl Xətai haqqında bədii film çəkməyi planlaşdırırdı, lakin məlum olmayan səbəblərdən həmin filmin ssenarisi ekran işinə çevrilə bilmədi. Ağa Məhəmməd şah Qacar haqqında da bədii filmin çəkiləcəyi barədə söhbətlər dolaşırdı. Səhv etmiriksə, o dövrün mətbuatında həmin filmi də Ə.Mahmudbəyovun çəkəcəyi haqqında məlumatlar vardı. Ancaq bu film də çəkilmədi.

Kino ictimaiyyətində gəzən söz-söhbətlərə, mövcud olan qeyri-rəsmi məlumatlara görə, indiyə qədər Şah İsmayıl Xətai, Nadir şah Əfşar, Ağa Məhəmməd şah Qacar, Şah Abbas və başqa hökmdarlarımız barədə filmlərin çəkilməməsinin səbəbi İranın bu şəxsiyyətlər haqqında filmlər çəkilməsinə maneçilik törətməsidir. Deyilənə görə, Azərbaycan tərəfi bu mövzularda film çəkmək təşəbbüsünü ortaya qoyan kimi, İran tərəfi buna etiraz edir və bildirir ki, onlar Azərbaycan hökmdarları kimi deyil, İran hökmdarları kimi təqdim edilməlidirlər, əks halda, bu haqda film çəkə bilməzsiniz.

İranın Şah İsmayıl Xətai, Nadir şah Əfşar, Ağa Məhəmməd şah Qacar, Şah Abbas kimi hökmdarlarımızla bağlı filmlər çəkilməsinə mane olması nə dərəcədə real görünür?

**Tanınmış kinorejissor Şamil Əliyev "Bakı-Xəbər"ə bildirdi ki, bu məsələdə İranın hər hansı bir təsirinin olub-olmadığı haqqında məlumatı yoxdur.** Rejissorun sözlərinə görə, o şəxsiyyətlər haqqında filmlərin çəkilməməsinin səbəbi İran faktorundan çox, ölkəmizdə film çəkmək üçün güclü maddi-texniki bazanın olmamasıdır. "Bilirsiniz, bu daha çox siyasi sferaya daxil olan insanların münasibət bildirməli olduğu, cavab verməli olduğu məsələdir. Mən bilmirəm ki, İran bu məsələdə bizə mane olub, ya olmayıb. Bu haqda heç bir məlumatım yoxdur. Şah İsmayıl Xətai, yaxud Nadir şah Əfşar haqqında film çəkmək niyə mümkün deyil? Bu yalnız istehsalat prosesinin ağırlığı və çətinliyi ilə bağlıdır. Azərbaycan kino sənayesi quruculuğu hələ özünün ilk addımlarını atmaq istəyir. Kino sənayesi əhatəli sahədir. Müasir dövrdə Azərbaycan kinosunun maddi-texniki bazası, insan resursları imkan vermir ki, o cür genişmiqyaslı, sanballı proyektlər təkbaşına həyata keçirilsin. Bundan ötrü hazırlaşmaq lazımdır. Mən rejissoram, sabah məni çağırıb desələr ki, Şah İsmayıl Xətai haqqında film çəkməlisən, mənim onlara ilk sualım bu olacaq ki, hansı bazada, kiminlə, necə çəkəcəyəm? Bu suallara kim cavab verəcək. Bu söhbətlər kifayət etdiyi üçün, mən onun siyasi tərəfinə baş vurmuram".

O bildirdi ki, Rusiyada yaşayan azərbaycanlı məşhur kinossenarist Arif Əliyevi Azərbaycan Mədəniyyət Nazirliyi Şah İsmayıl Xətai haqqında çəkilməsi nəzərdə tutulan filmə ssenari yazmaq üçün dəvət edib, lakin sonra bu filmlə bağlı məsələ naməlum səbəblərdən qapadılıb. "Həmyerlimiz Arif Əliyev Rusiyada barmaqla sayılacaq peşəkar, istedadlı ssenari yazarlarından biridir. Onun ssenari müəllifi olduğu filmlər iki dəfə "Oskar" nominasiyasına çıxıb. Azərbaycanda hələ onun ssenarisi əsasında film çəkilməyib. O, Rusiyada "Yekaterina", "I Pyotr" kimi filmlərin ssenari müəllifidir. Bu gün Rusiyada tələbat olan ssenari yazarlarından biridir. Məndə olan məlumata görə, Arif Əliyevi mədəniyyət nazirimiz hörmətli Əbülfəs Qarayev Şah İsmayıl Xətai layihəsilə bağlı bura dəvət etmişdi, bu filmə ssenari yazmaq işi ona həvalə edilmişdi. Layihə hazır idi. O özü bu barədə mənə danışıb. Dedi ki, mən hazır idim. Lakin sonra hansısa səbəbdən bu layihə alınmayıb. Hesab edirəm ki, bu filmin alınmaması bizdə maddi-texniki bazanın aşağı olması ilə bağlıdır" - deyə Ş.Əliyev vurğuladı.

"Nadir şah", "Əmir Teymur" və digər tarixi əsərlərin müəllifi, yazıçı-dramaturq, "Olaylar" qəzetinin və eyniadlı informasiya agentliyinin rəhbəri Yunus Oğuz "Bakı-Xəbər"ə bildirdi ki, bu mövzularda filmlərin çəkilməməsində İran faktoru yoxdur, bu, bəzi rejissorların özlərini əziyyətə salmamaq üçün sadəcə bəhanədir. "Əslində, belə bir məsələ yoxdur, bu, rejissorların bir bəhanəsidir. Onlar filmləri çəksinlər və tarixi bəlgələri yazsınlar. Məsələn, Səfəvi dövlətinin hökmdarı Şah İsmayıl Xətai, yaxud Əfşar şahı Nadir şah və s. - o zaman İran padşahı olmayıb. Şah İsmayılın hökmdar olduğu dövlət Səfəvi dövlətidir, Nadir şahın dövləti isə Əfşar dövlətidir. Fakt budur ki, onlar öz dövlətlərini qurublar. Ağqoyunlularda Bayandur, Qaraqoyunlularda Qaraqoyun, Sacilərdə Saci Azərbaycan dövləti olub. Bu onların hamısının möhüründə də var. Sacilər dövlətinin adında Azərbaycan var. Bəzi rejissorlar bu iddianı irəli sürməklə yalan danışırlar. Məlumatıma görə, "Cavad xan" filmini montaj etmək üçün İrana apardılar və İran 1 milyon pul vermişdi deyə, İrana sərf etməyən hissələri götürdülər. Rəhmətlik Rövşən Almuradlı da bir söz deyə bilmədi. Ona görə də İranın bu məsələdə müəyyən qədər marağı var. Mənim özümə də təkliflər olunmuşdu ki, Nadir şahı Azərbaycan şahı kimi yox, İran şahı kimi yaz, sənin üçün nə istəyirsən edirik. Belə şeylər var. Mən də dedim o vaxt İran şahı vardı? Əvşar şahı vardı, o da azərbaycanlı idi. Azərbaycan rejissorları tam olaraq müstəqil şəkildə onlar haqqında film çəkə bilərlər".

Azərbaycanda bu filmlərin çəkilməsi üçün maddi-texniki bazanın da olmadığı deyilir. Bu məsələyə gəlincə, Y.Oğuz qeyd etdi ki, Azərbaycanda bu gün film çəkmək üçün şərait də, maddi-texniki baza da var, sadəcə, rejissorlar işləməlidirlər. "Bizdə maddi-texniki baza var, təki istək olsun. Film çəkmək istəyən rejissor istəsə, maddi-texniki bazanı Türkiyədən də, Ukraynadan da, başqa ölkələrdən də gətirə bilər. Ola bilsin, bu filmlər dövlət sifarişi ilə çəkilərsə, dövlətlər bir-birinə etiraz edə bilərlər. İran rəsmi olaraq 1936-cı ildə o adı qazanıb, bizim dövlətə isə rəsmi olaraq 1918-ci ildə Azərbaycan adı verilib. Azərbaycan adı çox qədimdir. Hətta dövlətlərimiz, tarixi şəxsiyyətlərimiz bu adı daşıyıb".

Y.Oğuz qeyd etdi ki, bu gün Azərbaycanda Azərbaycan şahları, hökmdarları, xanları haqqında bədii filmlər çəkilməlidir. "Bizim bu gün çox böyük hökmdarlarımızın çoxu haqqında filmimiz yoxdur. Nadir şah, Uzun Həsən, Atabəy Eldəniz, Şah İsmayıl, Əmir Teymur haqqında filmimiz varmı? Yoxdur. Bu bizim bədbəxtliyimizdir. Dövlət müstəqilliyimizin 28-ci ilini yaşayırıq, ancaq bizim tarixi filmlərimiz yoxdur. Son dövlər çəkilən bir-iki tarixi filmin də heç biri, təəssüflər olsun ki, Azərbaycanın bütövlüyünü göstərmir. Müəyyən bir məqamda "Cavad xan" göstərir, o da yarımçıqdır. Həmin filmdə Cavad xan ümumən Azərbaycan kontekstində göstərilmir. Onun yalnız Rusiyaya qarşı mübarizəsi göstərilir. O burada bir azərbaycançı kimi təqdim edilmir. Əslində, o vaxtlar azərbaycançılıq məsələsi yox idi. Həmin dönəmdə hətta din də arxa plana keçmişdi. Çünki 1815-ci ildən sonra din məsələsi bir az qabardıldı və XIX əsrin ortalarında bəhailər ortaya çıxdı. Çəkilən filmlərdə, bütövlükdə, xalqın ruhu göstərilir. Bu, "Cavad xan"da bir az var. Xalqımızın ruhunu ortalığa qoyan tarixi filmlərimiz yoxdur. Hətta Qarabağa aid də belə filmimiz yoxdur. Bu da təəssüf doğurur" - deyə Y.Oğuz qeyd etdi.

**Tarix üzrə fəlsəfə doktoru Məhərrəm Zülfüqarlının da bildirdiyinə görə, bu mövzuda filmlərin çəkilməməsinə səbəb kimi İranın maneçilik törətdiyini demək həqiqəti əks etdirmir.** "Bu məsələdə İran amilini qabartmaq yanlış məsələdir. Birincisi, adlarını qeyd etdiyiniz hökmdarlar haqqında filmlər çəkilməsinə Sovet dövründə də qadağa qoyulmuşdu. Məsələn, "Fətəli xan" filmi çəkilib, ancaq o sırf sovet ideologiyasına uyğun ekranlaşdırılıb. Hətta Babəki sosial bərabərlik uğrunda mübarizə apardığına görə kommunistlərlə eyniləşdirirdilər.



***Şamil Əliyev:** "Bu haqda heç bir məlumatım yoxdur"*

***Yunus Oğuz:** "Əslində, belə bir məsələ yoxdur, bu, rejissorların bir bəhanəsidir"*

***Məhərrəm Zülfüqarlı:** "Bizim şahlarımız haqqında bədii-tarixi filmlər çəkməyimizə İran mane ola bilməz, çünki onların heç biri İran şahı deyil"*

Nadir şaha gəlincə, deyim ki, bilirsiniz ki, Nadir şah II Təhmasibin dövründə dövlət zəifləyərkən Azərbaycan dövləti olan Səfəviləri ayaq üstünə qaldırdı. Osmanlıları, rusları və özbəkləri Azərbaycan ərazisindən çıxardı, dövlətin ərazilərini bərpa etdi, möhkəmlətdi. O, ruslara qarşı siyasət yürüdürdü, onlarla mübarizə aparırdı. Təbii ki, belə bir şəxsiyyət haqqında Sovet dövründə film çəkilməsinə icazə verilməzdi. Qaldı Qacarlara, onlara münasibətdə bu gün də Sovet dövründən qalma yanaşma var. Bu gün Gəncə xanı Cavad xan Ziyadoğlu-Qacarı qəhrəman hesab edirik, ancaq onun müttəfiqi, Azərbaycanın fəxri olan, xalqımızın qəhrəman oğlu Abbas Mirzəni, yaxud Qacarı işğalçı hesab edirik. Yəni bunu şüurlardan çıxarmaq mümkün deyil. Ola bilsin, Qacara, Nadir şaha, Abbas Mirzəyə və başqalarına münasibətdə bəzi rejissorlar sovet təfəkkürü ilə yanaşırlar. Bu baxımdan, onlar bu mövzuda film çəkmək istəmirlər. Hesab edirəm ki, bizim şahlarmız haqqında bədii-tarixi filmlər çəkməyimizə İran mane ola bilməz, çünki onların heç biri İran şahı deyil. Biz film çəkməyə cəhd göstərmirik. O vaxt Şah İsmayıl Xətai haqqında filmin çəkilməsi aktuallaşanda bu məsələ müzakirəyə çıxarıldı və ölkəmiz iki yerə bölündü, bir tərəf dedi ki, onun haqqında film çəkilməlidir, bir qisim insan isə böyük şəxsiyyətimizə məhəlli təfəkkürü ilə yanaşdılar. Dedilər ki, biz niyə Şah İsmayıl haqqında film çəkməliyik. Bunu deyənlər Azərbaycan tarixini bilməyənlərdir. Bu gün Azərbaycanda Şah İsmayıl, Nadir şah, Qacar, Abbas Mirzə haqqında bədii filmlər çəkilməlidir" - deyə M.Zülfüqarlı bildirdi.

***İradə SARIYEVA***

# İsfəndiyar Axundovun qardaşı oğlu Eldəniz Axundovun da adı mənzil-tikinti qalmaqalında çıxdı

**Adil Hüseynov, Pərviz Həsənov, Tariyel Seyidov, Elmira Rəhimova, Solmaz Cəfərova, Fəxriyyə Camalova, Simuzər Əliyeva, Adil Nəcəfov, Xanımnaz Allahverdiyeva, Səxavət Əliyev, Əhməd Qəribov, Orxan Azadlı və Nazim Müzəffər adlı Azərbaycan Respublikası vətəndaşları "Bakı-Xəbər" qəzetinə şikayət ünvanlayaraq bildirirlər ki, mənzil qalmaqalı mövzusunda başlarına açılan müsibətlə bağlı yeganə çıxış yolu məsələni ictimailəşdirib problemlərinin həllinə nail olmaqdır.**

Şikayətçilərin sözlərinə görə, 15-ə yaxin ailə 2011-ci ildə Xocalı prospektində bina inşa edən "Hom Pash Prestij" şirkətindən mənzillər alıb: "Uzun müddət kirayələrdə qalıb mənzillərimizin yaxın zamanda bizə təhvil verilməyini gözləyirdik. 2015-ci ildən MTK-nın icazəsi ilə bir çoxumuz mənzilləri təmir etmişik, aramızda mənzillərə köçənlər də var. Fəqət, gözlənilmədən 2016-ci ildə məhkəmə icraçıları gəlib bizə məlumat verdilər ki, bu mənzillər artıq bizim deyil, İsfəndiyar Axundovun qardaşı oğlu Eldəniz Axundovundur. Sonradan bilmişik ki, demə, neçə illərdi bizim mənzillərlə bağlı məhkəmə işləri gedirmiş. Eldəniz Axundov bizim xəbərimiz olmadan MTK-nı məhkəməyə verib və baxmayaraq ki, onun bu mənzillər üçün heç bir ödəniş qəbzləri yoxdur, hansısa yollarla, məhkəmənin köməkliyi ilə bizim mənzillərə yiyələnib. Hazırda mənzillərimiz əlimizdən alınıb və məskunlaşmış sakinlər hər gün evdən qovulacaqları ilə hədələnirlər".

Şikayətçilər bildirirlər ki, onlar müxtəlif hökumət orqanlarına bununla bağlı şikayətlər ediblər: "Bizim şikayətimiz əsnasında Baş Prokuror yanında Korrupsiya ilə Mübarizə İdarəsi tərəfindən aparılan istintaqın gedişatında müəyyən edilib ki, əslində, E.Axundov bu mənzillərə heç bir pul ödəməyib və bu mənzilləri borc əvəzi girov saxlayıb. İstintaqın yekun nəticəsi də bizim bu mənzillərin əsl sahibi olmağımızı təsdiqləyir. Maraqlısı odur ki, istintaqın bu nəticəsi də biz sakinlərin vəziyyətini heç cür yüngülləşdirmir. Biz sakinlər dəfələrlə bu yeni faktları məhkəmə sədrinə və həmçinin, rayon məhkəmələrinə bildirərək, hüquqlarımızı tanıyaraq, əvvəlki ədalətsiz qərarı ləğv etməyə çağırmışıq. Buna baxmayaraq, məhkəmələr hələ də bu 15 ailənin haqlarını tapdalayaraq oliqarxın xeyrinə qərarlar çıxarırlar. Sizdən artıq dərəcədə xahiş edirik ki, məsələnin ədalətli həlli üçün problemimizi ictimailəşdirməkdə bizə köməklik göstərəsiniz və bizim haqqımızın tapdanmaması üçün səylərinizi əsirgəməyəsiniz".

Şikayətçilər bildirirlər ki, həmin binadan alınan təmirsiz mənzilin minimum qiyməti 150 min manatdır: "Elələri var ki, mənzilini əla təmir edib. Ümumi məbləği hesablayanda bizə dəyən ziyanın məbləği 3 milyondan artıq edir".

"Bakı-Xəbər" qəzeti olaraq biz "Hom Pash Prestij" şirkətinin rəhbəri, türk vətəndaşı olan Hikmət Yigitböllə əlaqə saxladıq. O, qəzetimizə açıqlamasında bunları bildirdi: "Mən vətəndaşların yanındayam. Onlara böyük haqsızlıq edilib. Ancaq sizi əmin edirəm ki, bu işdə ən böyük zərəri elə mənim özüm çəkmişəm. Biznes aləmində "Şərurlu İsfəndiyar" kimi tanınan İsfəndiyar Axundovun qardaşı oğlu olan Eldəniz Axundov öz şəxsi əlaqələrindən istifadə edərək, bizim başımıza bu oyunu açıb. Axundov həmin mənzillərə bir qəpik də olsun pul ödəməyib. Onun özü bunu izahatlarında da qeyd edib. Artıq mən məcbur olub bu şirkəti Qabil Əliyev adlı adama təhvil verirəm, ancaq səhmləşmə prosesi həyata keçirilmədiyi üçün, mən mənzilləri tikən qurumun rəhbəri sayılıram. Eldəniz Axundovun bizimlə bir barter razılaşması vardı. O bizə 10 hektar torpaq verəcəkdi, biz isə ona mənzil. Sonra gəlib dedi ki, barter istəmir. Razılaşmanı pozmalı olduq. Hətta təzminat olaraq məndən 60 min manat pul da aldı ki, mənzil iddiasından tam əl çəksin. Mən ona 60 mini ödəmişəm və bütün kağızları ondan aldım. Sonra gəldi bizim yeni tikintilərdən birindən evlər aldı və 600 min manata yaxın pul ödədi. Bina vaxtında bitmədiyi səbəbindən məhkəmələrə üz tutdu və dediyiniz mənzillərin də ona aid olduğuna dair iddia qaldırdı. Həmin vaxt mən Türkiyədəydim. Bir də xəbərim oldu ki, Axundov ona zərrə qədər də aidiyyəti olmayan mənzilləri də ələ keçirib. Mən zərərçəkən vətəndaşların yanındayam".

***Türkiyə vətəndaşı Hikmət Yigitböl:***
*"Eldəniz məndən 60 min manat da aldı ki..."*



***Məhəmmədəli QƏRİBLİ***

# Pakistanlı bir maşın heroini Astara gömrüyündə buraxıb qaçmaq istədi...

**Azərbaycan gömrükçüləri xeyli miqdarda narkotik vasitə və psixotrop maddənin gömrük nəzarətindən gizlədilmiş şəkildə ölkə ərazisinə gətirilməsi cəhdinin qarşısını alıb.**

DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən "Bakı Xəbər"ə verilən məlumata görə, Cənub Ərazi Baş Gömrük İdarəsinin Astara gömrük postunda İran İslam Respublikasından daxil olan "Volvo" markalı, 69E20710 dövlət nömrə nişanlı sərnişin avtobusuna baxış zamanı 3 ədəd kisə və 1 ədəd əl yükünün sahibi müəyyən olunmayıb.

İran vətəndaşı olan avtobus sürücüləri həmin yüklərin pakistanlı bir şəxsə məxsus olduğunu və onun yanındakı başqa bir nəfərlə İran gömrüyündə avtobusdan enərək piyada yolla Azərbaycan Respublikasına daxil olduğunu, hazırda isə Astara gömrük postunun çıxış qapısında avtobusu gözlədiklərini bildiriblər.

Sonra şəxsiyyəti müəyyənləşdirilən həmin şəxslər, Pakistan İslam Respublikasının vətəndaşları Khan Noor Khan Jamal oğlu və Butt Amjad Javed Hussain Fazal oğlu Astara gömrük postunun avtonəqliyyat vasitələri üçün nəzərdə tutulmuş idxal yoxlama xəttinə dəvət olunub. Orada Khan Noor Khan Jamal oğlu sözügedən yüklərin ona məxsus olduğunu bildirib.

Daha sonra Khan Noor Khan Jamal oğlunun iştirakı ilə ona məxsus əl yüklərinə rentgen aparatında baxış keçirilib. Baxış zamanı 3 ədəd kisənin içərisində şübhəli cizgilər müşahidə edildiyindən həmin yüklər kinoloji xidmət itinin tətbiqi ilə təkrar yoxlanıb. "Volter" ləqəbli xidməti it kisələrə reaksiya verdiyi üçün həmin yüklər bu dəfə əsaslı şəkildə yenidən yoxlanıb.

Nəticədə, 3 ədəd kisədə olan 39 ədəd gödəkçənin astarının içərisində cəmi 106 ədəd bağlamada qablaşdırılması ilə birlikdə ümumi çəkisi 3 kiloqram 260 qram təşkil edən narkotik vasitə - heroin aşkarlanıb. Bununla yanaşı, adıçəkilən Pakistan vətəndaşının əl çantasında isə





üzərində "Alprazolam 0.5 mg" yazısı olan 43 ədəd dərman preparatı aşkar edilib.

Xatırladaq ki, alprazolam "Azərbaycan Respublikasının ərazisində dövriyyəsinə nəzarət edilən psixotrop maddələrin III Siyahısı"na daxildir.

Faktla bağlı araşdırma aparılır.

# Bakıda hələ də tüstüsü kəsilməyən restoranlar Ekologiya Nazirliyinə hansı cavabları qaytardılar...

**İctimai iaşə obyektlərinin yerləşdiyi ərazilərdə xüsusən şənbə və bazar günlərində qoxu ilə müşayiət olunan tüstü insanlarda diskomfort yaradır. Təbii ki, bu vəziyyət vətəndaşların çoxsaylı şikayət və narazılığına səbəb olur. Bakı şəhərinin müxtəlif rayonlarında fəaliyyət göstərən ictimai iaşə obyektləri, restoran, kafe, şadlıq sarayları tərəfindən atmosferi tullantılarla çirkləndirmə, yerləşdikləri ərazilərdə, xüsusilə sakinlərin kütləvi istirahət yerlərində ətraf mühitə ziyan vurmaları vətəndaşları narahat edir.**

***"Real" şadlıq evi - Samir Qaraşov:*** *"Monitorinq keçirilən zaman şadlıq evinin içərisinə daxil olub..."*

***"Golden Ring" şadlıq evi - Nicat Abbasov:*** *"...biz restorana adıçəkilən qurğunu quraşdırdıq"*

***"Sonalar Sonasi" şadlıq evi - Cavid Hüseynov:*** *"Qurğunun filtrləri 15-20 gündən bir dəyişdirilir"*

***"Flaminqo" şadlıq evi - Tahir:*** *"Təmizləyici qurğu restorana 2 ay öncə quraşdırılıb"*

***"Oazis" şadlıq evi - Habil Ağayev:*** *"...nəyə əsasən təmizləyici qurğusu olan şadlıq evinin adı qeyd olunur?"*



Məlum olduğu kimi, bir müddət öncə Ekologiya və Təbii Sərvətlər Nazirliyi Bakıda havanı çirkləndirən restoran və kafe sahiblərinə ciddi xəbərdarlıq edərək, bu obyektlərdən çıxan tüstünün zərərsizləşdirilməsi üçün xüsusi avadanlıqların quraşdırılması ilə bağlı tapşırıq verdi. Eləcə də xəbərdarlıqda bu qaydalara əməl etməyən şadlıq sarayları və restoranların cərimələnməsi də ciddi vurğulanırdı.

Hətta Prezident İlham Əliyev də havanı çirkləndirən şadlıq evlərinə ciddi xəbərdarlıq etmişdi. Məlumat üçün bildirək ki, oktyabrın 10-da Nazirlər Kabinetinin 2018-ci ilin 9 ayı ərzində sosial-iqtisadi inkişafın yekunlarına həsr olunmuş iclasında Prezident İlham Əliyev deyib ki, havanı çirkləndirən məişət obyektlərinə ciddi xəbərdarlıq edilib: "Axsam saatlarında Bakı şəhərini tüstü bürüyür. Şadlıq evlərində tüstü təmizlənmədən havaya sovrulur. Ona görə çox ciddi xəbərdarlıq edilib, kim əməl etməyəcəksə, o şadlıq evinin, məişət obyektinin qapısı bağlanacaq. Mən tapşırmışam ki, bunun üçün hüquqi əsaslar hazırlansın. Bildiyimə görə, birinci xəbərdarlıqdan sonra bir çox məişət obyektləri təmizləyici qurğuları quraşdırmağa başlayıblar. Onların hamısına məsləhətim ondan ibarətdir ki, bu işi tezləşdirsinlər. Çünki ikinci xəbərdarlıq olmayacaq, bir də görəcəklər ki, əldən çıxdı. Ona görə tezliklə bütün böyük-kiçik məişət obyektlərində havanı çirkləndirən, havaya tüstü, kanserogen buraxan obyektlərdə təmizləyici qurğular quraşdırılmalıdır, müvafiq qurumlar monitorinq aparmalıdır. Mən Bakı Şəhər İcra Hakimiyyətinə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə göstəriş verdim ki, mənə dərhal məlumat verilsin və dərhal ölçü götürüləcək".

Prezidentin məlum çıxışından sonra əksər şadlıq evləri bu qurğuların axtarışına başladı. Bəziləri hələ xəbərdarlıqdan öncə belə qurğulardan istifadə etdiklərini desələr də, nə filtr quraşdıran firmanın adını bilirlər, nə də qiymətini. Prezidentin şadlıq evləri ilə bağlı çıxışından təxminən 1 ilə yaxın vaxt keçib. Bu müddət ərzində bəzi şadlıq evləri təmizləyici qurğuları alıb quraşdırdı, bəziləri isə bu xəbərdalığı hələ də ciddi qəbul etmir.

Bu günlərdə təmizləyici qurğu quraşdırmayan, ekologiyaya ziyan vuran şadlıq evlərinin adları yenidən ictimaiyyətə açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf Mühit üzrə Milli Monitorinq Departamentinin direktor müavini Anar Tağıyev media nümayəndələrinə açıqlamasında bildirib ki, bəzi şadlıq sarayları və restoranlardan havaya tüstünün, iyqoxunun yenidən yayılması ilə bağlı ETSN-ə şikayətlər daxil olduğundan, təkrar monitorinqlərə başlanıb: "Keçirilən monitorinqlər zamanı təmizləyici qurğuların filtrlərinin vaxtaşırı təmizlənmədiyi səbəbindən 31 obyektdən havaya yenə də normadan artıq tullantıların atıldığı məlum olub.

Bunlar "Real", "Golden Ring", "Sonalar Sonası", "Milord", "Həyat", "Cənnət", "Flaminqo", "Qızıl Buta", "Madonna", "Afrodita", "Oazis", "Qızıl Tac", "Gold Palace", "Niel", "İdeal", "Şəhanə" və digər şadlıq saraylarıdır ki, onların sahiblərinə çirklənmiş filtrlərin vaxtlıvaxtında dəyişdirilməsi barədə göstərişlər verilib. Araşdırma və monitorinqlər davam etdirilir".

A.Tağıyev onu da bildirib ki, təmizləyici qurğuların quraşdırılması ilə iş bitmir, bundan sonra da qurğulara davamlı texniki xidmət göstərilməli, filtrlər vaxtaşırı dəyişdirilməli, verilən göstərişlər yerinə yetirilməlidir: "Ümumiyyətlə, havanı çirkləndirən amillərə qarşı ciddi mübarizə aparılması qarşımıza mühüm vəzifə kimi qoyulub və bundan sonra da bu istiqamətdə nazirlik tərəfindən lazımi və sərt tədbirlər görüləcək".

Adları çəkilən şadlıq evlərində təmizləyici qurğunun quraşdırılmadığı iddia olunur. Ancaq həmin şadlıq evləri isə iddia edirlər ki, təmizləyici qurğu quraşdırılıb, haqsız yerə onların adı ekologiyaya zərər vuran şadlıq evi kimi çəkilir.

"Real" şadlıq evinin inzibatçısı Samir Qaraşov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, uzun müddətdir restorana təmizləyici qurğu quraşdırılıb: "15 gün öncə isə qurğunun filtrləri təmizlənərək dəyişdirilib. Mütəmadi olaraq qurğunun filtrləri dəyişdirilərək istifadə olunur. Bizim restorandan ətrafa insanları narahat edəcək tüstü yayılmır. Bir neçə gün öncə şadlıq evinin qarşısında bəzi şəxslərin kamera ilə nəsə çəkib qeyd apardıqlarını gördüm. Maraqlıdır, bu siyahını tərtib edən şəxs şadlıq evinin xarici görkəminə baxıb restoran haqqında fikir bildirir? Monitorinq keçirilən zaman şadlıq evinin içərisinə daxil olub təmizləyici qurğunun quraşdırıldığını şəxsən müşahidə edə bilərdilər".

"Golden Ring" şadlıq evinin inzibatçısı Nicat Abbasov bizimlə söhbətində bildirdi ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin şadlıq evlərində təmizləyici qurğu quraşdırması ilə bağlı ilk təklifi gündəmə gələn zaman biz restorana adıçəkilən qurğunu quraşdırdıq: "15 gün əvvəl təmizləyici qurğunun filtrləri dəyişdirilib. Nəzərə almaq lazımdır ki, "Golden Ring" şadlıq evi Bəkir Çobanzadə küçəsində yerləşir. Restoranlar da bu küçədə olduğu üçün, bütün diqqət əsas burada fəaliyyət göstərən şadlıq evlərinin üzərindədir. "Golden Ring" şadlıq evində də təmizləyici qurğu quraşdırılıb".

"Sonalar Sonası" şadlıq evinin inzibatçısı Cavid Hüseynov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, təmizləyici qurğu restorana çoxdan quraşdırılıb. Qurğunun filtrləri isə 15-20 gündən bir dəyişdirilir.

"Flaminqo" şadlıq evinin inzibatçısı Tahir adlı şəxs bizimlə söhbətində bildirdi ki, təmizləyici qurğu restoranda 2 ay öncə quraşdırılıb. Qurğu quraşdırılan gündən etibarən mütəmadi olaraq filtrləri dəyişdirilir. Restorandan ətrafa insanları narahat edəcək, nə də ekologiyanı korlayacaq tüstü buraxılmır.

"Oazis" şadlıq evinin inzibatçısı Habil Ağayev də qeyd etdi ki, çalışdığı restoranın ekologiyanı pozan şadlıq evi kimi təqdim olunması düzgün deyil: "Çünki şadlıq evinə təmizləyici qurğu uzun müddətdir quraşdırılıb, filtrlər isə tez-tez dəyişdirilir. Onu da bildirim ki, filtrlər təmizləyici qurğunu quraşdıran şirkərin əməkdaşları tərəfindən təmizlənir. Maraqlıdır, siyahı tərtib olunarkən nəyə əsasən təmizləyici qurğusu olan şadlıq evinin adı qeyd olunur. İstənilən şəxs istədiyi zaman "Oazis" şadlıq evinə gəlib təmizləyici qurğunu və onun işlək vəziyyətdə olduğunu müşahidə edə bilər".

***Günel CƏLİLOVA***

**Ali məktəblərdə əla qiymətlərlə oxuyan tələbələrin stimullaşdırılması, onların təhsilə, elmə marağının artırılması üçün müxtəlif layihələr həyata keçirilir.**

***Nazxanım Cəlili:*** *"Bizim universitetdə əvvəllər də əlaçı tələbələrə "Bələdiyyə təqaüdü" verilib"*

***Sumqayıt Şəhər İcra Hakimiyyəti:*** *"Bu təqaüd əlaçı tələbələrin biliyinin stimullaşdırılması sahəsində atılan müsbət addımdır"*

# Sumqayıtda əlaçı universitet tələbələrinə verilən "Bələdiyyə təqaüdü" nə deməkdir...

*Əlaçı tələbələrə "Bələdiyyə təqaüdü"nün bələdiyyənin əsasnaməsinə əsasən veriləcəyi bildirilir*



Sumqayıt Dövlət Universitetində (SDU) təhsil alan əlaçı tələbələrə "Bələdiyyə təqaüdü" veriləcək.

Tələbələrə veriləcək "Bələdiyyə təqaüdü" hansı maliyyə hesabına reallaşacaq?

**SDU-nun mətbuat xidmətinin təmsilçisi Nazxanım Cəlilli "Bakı-Xəbər"ə bildirdi ki, bu, ilk təşəbbüs deyil, bundan əvvəl də əlaçı tələbələrə "Bələdiyyə təqaüdü" verilib.** "Bizim universitetdə əvvəllər də əlaçı tələbələrə "Bələdiyyə təqaüdü" verilib. Sumqayıt şəhərinin icra başçısı Zakir Fərəcov vaxtilə bələdiyyə sahəsində çalışdığı dövrlərdə SDU-nun əlaçı tələbələri bu təqaüdü alıblar".

Mətbuat xidmətinin təmsilçisi onu da bildirdi ki, bu təqaüdün yenidən veriləcəyi ilə bağlı açıqlamanı aprelin 10-da Sumqayıt Dövlət Universitetində "Sumqayıtın bu günü və sabahı" mövzusunda keçirilən elmi-praktik konfransda Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov verib.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin mətbuat xidmətindən "Bakı-Xəbər"ə verilən məlumata görə isə "Bələdiyyə təqaüdü" SDU və Sumqayıt Bələdiyyəsinin həyata keçirdiyi layihədir. Bildirilənə görə, 1999-2000-ci illərdə və digər vaxtlarda da SDU tələbələri bu təqaüddən bəhrələniblər. "Tələbələrə əvvəllər də bu təqaüd verilib. Bu təqaüd əlaçı tələbələrin biliyinin stimullaşdırılması sahəsində atılan müsbət addımdır. Bu, Sumqayıt Bələdiyyəsi və Sumqayıt Dövlət Universitetinin birgə layihəsidir".

Təqaüdün maliyyə mənbəyinə gəlincə, İcra Hakimiyyətinin mətbuat xidmətindən bildirdilər ki, bu haqda hər hansı bilgiyə malik deyillər, maliyyə qaynağı bələdiyyənin əsasnaməsində öz əksini tapıb və təqaüd də əsasnaməyə əsasən veriləcək.

***İradə SARIYEVA***

**Turizm dünyanın əksər ölkələrinin iqtisadiyyatında getdikcə daha böyük əhəmiyyət kəsb edir. Müxtəlif ölkələr bu sahədə mövcud imkanlardan maksimum yararlanmağa çalışırlar. Kənd yaşıl turizmi də səyahət həvəskarları arasında populyarlıq qazanmaqdadır.**

*"Azərbaycanda arıçılığın tarixi kökləri və ənənələri var"*

# Azərbaycanda arıçılıq turizmi...

***Çingiz İsmayılov:*** *"Arıçılıq turizmini ölkədə inkişaf etdirmək olar, bunun üçün..."*



Təbii-coğrafi potensial və tarixi-mədəni obyektlərlə yanaşı, kənd yaşayış məntəqələrinin imkanlarından istifadə edilməsi əsasında bu turizm növü geniş yayılır. Bu sahə kəndlərin və kənd təsərrüfatının inkişafına, sosial-mədəni xidmət sahələrinin yaradılmasına, əhalinin məşğulluğunun təmin edilməsinə və gəlirlərinin artmasına da müsbət təsir göstərir.

Böyük şəhərlərdən gələn insanlarda adi kənd evində yaşayıb istirahət etmək arzusu olur. Buna "kənd turizmi" və ya "aqroturizm" də deyilir. Bəllidir ki, bu gün ölkədə turizmin əsas qollarından biri olan aqrar turizmin inkişaf etməsi istiqamətində müəyyən işlər görülür.

Aqrar turizmin sahələrindən biri də arıçılıqdır. Arıçılıq Azərbaycanda ən qədim təsərrüfat sahələrindən biri hesab olunur.

Turizmi inkişaf etdirmək üçün aqrar turizmin sahələrindən biri olan arıçılıq turizminin Azərbaycanda yaradılması təklif olunur. Azərbaycan Arıçılar Assosiasiyası BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı - FAO ilə birlikdə ölkədə arıçılıq turizminin yaradılması ilə bağlı layihə həyata keçirməyi planlaşdırır. Bu barədə assosiasiyanın sədri Bədrəddin Həsrətov media nümayəndələrinə məlumat verib. O qeyd edib ki, bu ilin yay aylarında reallaşdırılması nəzərdə tutulan layihəyə Avropa İttifaqı maliyyə dəstəyi vermək istəyir: "Layihə çərçivəsində Qax rayonunda olan arıçılıq təsərrüfatının bazasında bir sıra işlərin görülməsi planlaşdırılır. Arıçılıq turizminin mahiyyəti odur ki, turistlərə bal və digər arıçılıq məhsullarının istehsalı prosesini izləmək şəraiti yaradılır".

**Arıçılıq turizminin ölkədə inkişafı istiqamətində nə kimi işlər görülməlidir? Məsələ ilə bağlı turizm sahəsi üzrə ekspert Çingiz İsmayılova müraciət etdik.** O, "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, qeyri-ənənəvi turizm sahələrinə diqqət yönəltmək lazımdır: "Arıçılıq turizmini ölkədə inkişaf etdirmək olar. Ancaq bunun üçün bəzi detalları nəzərə almaq lazımdır. Arıçılığın hansı bölgədə inkişaf etdirilməsi dəqiq araşdırılmalıdır. Həmin bölgə elə bir zona olmalıdır ki, turist ora gəlməkdə maraqlı olsun. Həmçinin, turist tək arı pətəyinə baxmamalıdır, eyni zamanda, arıçının pətəyə necə qulluq etməsi barədə məlumat da əldə etməlidir. Arıçılıq turizmini inkişaf etdirmək üçün arıçılıqla bağlı broşurlar hazırlanmalıdır. Xarici və yerli informasiya portallarında Azərbaycanda arıçılıq təsərrüfatı ilə bağlı məlumat yayılsın".

**Həmsöhbətimiz onu da vurğuladı ki, arıçılıq kənd təsərrüfatının ekoloji baxımdan təhlükəsiz növlərindən biridir. Ərzaq məhsullarının təhlükəsizliyi məsələlərinin qlobal əhəmiyyət daşıdığı müasir dövrümüzdə arıçılığın inkişafının labüdlüyü xüsusilə diqqəti cəlb edir. Nəzərə almaq lazımdır ki, Azərbaycanda arıçılığın tarixi kökl?ri və ənənələri var.**

***Günel CƏLİLOVA***

# Maştağada Daş karxanası massivinin sakinləri susuzluqdan yanır...

**Maştağa qəsəbəsində yerləşən Daş karxanası massivi nisbətən yeni salınan yaşayış məntəqələrindən biri hesab olunur. Əvvəllər bu ərazilər çöllük olub. Zaman keçdikcə, oradakı torpaqlar satılıb və yeni evlər, obyektlər tikilib. Yerli sakinlərin dediyinə görə, ərazidə qrunt sular çox olduğuna görə bir sıra ərazilər qamışla örtülüb.**

***Müqəddəs Kərimov:*** *"Əhalinin kustar üsullarla çəkdiyi su xətləri tələbatı ödəmir"*

***Anar Cəbrayıllı:*** *"Daş karxanası yaşayış massivinə su xəttinin çəkilməsi layihədə var, amma bu, qarşıdakı illərdə reallaşacaq"*

Doxsanıncı illərin ortalarından başlayaraq sözügedən ərazilər satılmağa başlanıb. Beləcə Daş karxanasında fərdi evlərin tikintisi artmağa başlayıb.

Bu proses Azərbaycanda bələdiyyələr yaradılandan sonra daha geniş vüsət alıb. Belə ki, bələdiyyələr necə gəldi torpaqları satıblar. Nəticədə həmin ərazilərdə nizamsız formada evlər inşa olunmağa başlayıb. Adətən hansısa yaşayış massivi salınanda birinci orada müvafiq infrastruktur yaradılır. Yəni kommunukasiya xətləri çəkilir, ondan sonra yaşayış evi və ya hansısa obyektlər tikilir. Daş karxanası yaşayış massivində isə bütün bunlar əksinə olub. İlk əvvəl evlər tikilib, ondan sonra isə işıq və qaz xətləri çəkilib. Sözügedən kommunikasiya xətlərinin yenilənməsi isə son illərdə mümkün olub. O vaxta qədər isə bu sahədə işlər yarımçıq olub. Nəticədə tez-tez elektrik kəsilib, qaz xətləri yerin altıyla çəkildiyi üçün bu, bir sıra problemlərə yol açıb.

**Bu arada Daş karxanası yaşayış massivi sakini Kərimov Müqəddəs Müqabil oğlu redaksiyamıza şikayətlə müraciət edərək sakinlərin su təminatında ciddi problemlər olduğunu qeyd etdi. Onun sözlərinə görə, yaşayış massivində su xətləri bərbad vəziyyətdədir:** "Əvvəllər sakinlər suyu pulla alırdılar. Sonra əhali öz vəsaiti hesabına şlanqlarla uzaq məsafədən su çəkməyə başladı. Bu həm maddi baxımdan baha başa gəldi, həm də keyfiyyət baxımından münasib deyil. Çünki son illər Daş karxanasında tikilən evlərin sayı xeyli artıb. Bu səbəbdən suya olan tələbat da yüksəlib. Nəticədə suyun verilmə təzyiqi aşağı düşüb. Əhalinin kustar üsullarla çəkdiyi su xətləri tələbatı ödəmir. Əsl müsibət bundan sonra olacaq. Çünki qarşıdan yay gəlir. Yayda suya olan tələbat kəskin şəkildə artır, amma tələbat ödənilmir. Çünki burada normal su xətti yoxdur. Ağaclar suvarılır, həyətlərdə bostan məhsulları becərilir, isti ilə əlaqədar tez-tez yuyunmalı olursan. Bütün bunların hamısı suyun hesabına mümkündür. Yayda isə burada su olmur və camaat zülm çəkir. "Azərsu" bütün evlərə sayğac qoyub, amma məhəlləyə su xətti çəkmir. Daş karxanasında on min nəfərə qədər əhali yaşayır.



Burada yaşayanların əksəriyyəti son 20 il ərzində rayonlardan gəlib. Nə vaxta qədər əziyyət çəkək? Yaxşı olardı ki, Daş karxanasında normal su xətləri çəkilsin və bizim bununla bağlı problemimiz həll edilsin. Onu da qeyd edim ki, Daş karxanası yaşayış massivində kanalizasiya sistemi yoxdur. Hərə bir çuxur qazıb tullantı sularını ora axıdır. Bunun özü isə bir ayrı dərddir. Ona görə də kanalizasiya xətlərinin çəkilməsinə də ehtiyac var".

**Sözügedən məsələ ilə əlaqədar "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidməti və ictimai əlaqələr şöbəsinin rəhbəri Anar Cəbrayıllı ilə əlaqə saxladıq. Qurum rəsmisi qəzetimizə verdiyi açıqlamasında Daş karxanasında su təchizatı ilə bağlı problemlərin olduğunu etiraf etdi:** "Orada su xəttinin çəkilməsi planımızda var, amma bütün bunlar mərhələli şəkildə olacaq. Dövlət büdcəsindən vəsait ayrıldıqca bu işlər görülür. Bu gün Sabunçu rayonunun bəzi ərazilərində, o cümlədən, Binəqədi, Səbail, Abşeron rayonlarının bəzi kənd və qəsəbələrində işlər görülür. Yeni su xətləri çəkilir, köhnələri yenilənir. Deməyim odur ki, Maştağa qəsəbəsində yerləşən Daş karxanası yaşayış massivinə də su xəttinin çəkilməsi layihədə var, amma bu, qarşıdakı illərdə reallaşacaq. Ancaq bununla bağlı konkret vaxt deyə bilmərəm. Nəinki Daş karxanası, o cümlədən Savalan, Gülçülük və həmin zonada yerləşən digər yaşayış massivlərinə yeni su xətləri çəkiləcək. Bir məqamı qeyd edim ki, bu, investisiya ilə bağlı olan məsələ olduğu üçün, mərhələli şəkildə həyata keçirilir. Məsələn, Prezident İlham Əliyev bu məqsədlə Şəkiyə 25 milyon manat vəsait ayırdı. Həm dövlət büdcəsindən bununla bağlı vəsait ayrılır, həm də beynəlxalq layihələr çərçivəsində işlər görülür. Bu il su sektoruna hardasa 100 milyon manata yaxın investisiya yatırılacaq. Ona görə də yaxın illərdə sözügedən məsələ öz həllini tapacaq".

Belə aydın oldu ki, Daş karxanası yaşayış massivi sakinləri hələ bir müddət gözləməli olacaqlar.

***Vidadi ORDAHALLI***

# Toyuq kəsimi və donuzçuluq bir yerdə - "Qida... Agentliyi bu işi inzibati qaydada həll edə bilməyəcək"...

**Ərzaq təhlükəsizliyi əhalinin sağlamlığının strateji istiqamətlərindən biridir. Yeni qanunvericilik aktlarının qəbul edilməsi, qanunvericiliyin icra mexanizmi üçün sənədlərin hazırlanması və qanunvericilik aktlarının icrasına nəzarət sahəsində ölkəmizdə son illər əsaslı işlər görülsə də, yenə istər istehsal sahələrində, istərsə də iaşə obyektlərində həyat üçün təhlükəli olan xeyli neqativ halla qarşılaşırıq.**

*"...kimyəvi boyalarla boyayıb kənd toyuğu adı ilə satışa çıxarırlar"*

***Eyyub Hüseynov:*** *"Qida Təhlükəsizliyi Agentliyi istehsal olunan məhsulun etiketlənməsinə nail olarsa, antisanitar şəraitdə fəaliyyət göstərən sexlərin sayı azalar"*

İnsanlar ya naşılıqdan, ya da bilərəkdən bu halların yaranmasının iştirakçısına çevrilirlər.

Bakı və bölgələrdə mütəmadi olaraq antisanitariya rejimində fəaliyyət göstərən sexlər aşkar olunur. Həmin sexlərdə kustar üsulla qidalar hazırlanaraq, satışa çıxarılır. Bu günlərdə isə antisanitar şəraitdə fəaliyyət göstərən toyuq sexi aşkarlanıb. Maraqlı məqam ondan ibarətdir ki, qanunsuz emal sexi donuz yetişdirmə sahəsi ilə eyni ərazidə yerləşirmiş.



Ekspertlər bildirirlər ki, bu tip faktların sayı yetərincədir. Antisanitariya rejimində fəaliyyət göstərən sexlərin sayını azaltmaq üçün cərimələrin məbləği daha da artırılmalıdır.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, paytaxt Bakı ərazisində onlarla antisanitariya rejimində fəaliyyət göstərən toyuq sexi var:** "Bu günlərdə Ramanada aşkar olunan sex dəryada bir damladır. Belə yerlərin sayı saysız-hesabsızdır. Elə toyuq sexləri var ki, onlar toyuğu antisanitar şəraitdə yolur, kimyəvi boyalarla boyayıb kənd toyuğu adı ilə satışa çıxarırlar. Hesab edirəm ki, Qida Təhlükəsizliyi Agentliyi bu işi inzibati qaydada həll edə bilməyəcək. Çünki əhalinin kənd toyuğu adlı məhsula tələbatı



yüksəkdir. Onu da deyim ki, Nazirlər Kabinetinin 95 saylı qərarına əsasən, ölkənin əmtəə bazarında satılan bütün məhsullar, o cümlədən, toyuqlar paketlənərək etiketlənməlidir. Məhsul etiketlənən zaman malın adı, hansı firma tərəfindən istehsal olunduğu, ünvanı, son istifadə tarixi düzgün şəkildə qeyd olunmalıdır. Qida Təhlükəsizliyi Agentliyi məhsulun etiketlənməsinə nail olarsa, bu sexlərin sayı azalar və kimyəvi rənglə boyanmış toyuqları almazlar".

Həmsöhbətimizin sözlərinə görə, bu cür sexləri ifşa edib bağlamaq yox, onlara düzgün şəkildə fəaliyyət göstərmələri üçün həm şərait yaradılmalı, həm də maarifləndirmə xarakterli işlər görülməlidir.

***Günel CƏLİLOVA***

№ 65 (3963) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

12 APREL 2019-cu il

www.baki-xeber.com

## İsrail alimləri orqanizmə zərər vuran ilk kompüter virusu hazırladı

**İsrail alimləri yüksəktexnologiyalı tibbi avadanlıqda boşluq aşkar ediblər. "ICTnews" bildirir ki, alimlər işlək eksploit hazırlayaraq hücum həyata keçirməyə müvəffəq olublar.**



Hazırlanmış zərərverici proqram təminatı kompüter tomoqrafiyası və maqnit-rezonans tomoqrafiyasının nəticələrinə dəyişikliklər etməyə imkan verir. Həm də dəyişikliklər tomoqrafiya şəkillərinin həkimlər tərəfindən qəbulundan öncə həyata keçirilir. Aşkar edilmiş boşluğun köməyi ilə pasiyentin tomoqrafiya şəklinə bədxassəli şişi əlavə etmək və ya silmək olar. Yekun şəkil o qədər real görsənir ki, sınaqlarda iştirak etmiş həkimlər şəklin həqiqiliyinə şübhə etməyiblər.

## "Azercell" tərəfindən ödənişsiz göz müayinələrinin təşkili davam edir

**Azərbaycanın mobil rabitə bazarında lider mövqedə qərarlaşan "Azercell" şirkətinin təşkil etdiyi ödənişsiz tibbi müayinələrdən minlərlə insan faydalanıb.**

Şirkətin dəstəyilə fəaliyyət göstərən "Mobil Göz Klinikası" 2011-ci ildən etibarən bu müayinələri davamlı olaraq keçirməkdədir. Klinika tərəfindən 3 aprel 2019-cu il tarixində Pereküşkül qəsəbəsi, hərbi şəhərciyin ərazisində yerləşən I saylı tam orta məktəbə növbəti səfər təşkil edilib. Səfər çərçivəsində 52 nəfərin müayinəsi aparılıb, ehtiyacı olanlara müalicə təyin olunub, optik eynəklər paylanıb.

Qeyd edək ki, valideyn himayəsindən məhrum olan uşaqlarda göz xəstəliklərinin müayinəsinin təşkilini və profilaktikasının aparılmasını təmin etmək məqsədilə yaradılan "Mobil Göz Klinikası"nın xidmətlərindən eyni zamanda ahıllar, aztəminatlı ailələr və məcburi köçkünlər də yararlanırlar. Bütün müayinə və müalicə tədbirləri "Azercell"in dəstəyilə "Xəzər Qayğıkeşlik Layihəsi" İctimai Birliyi tərəfindən həyata keçirilir.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## Elan

Əmirov Rakif Əhməd oğlunun adına, Bakı şəhəri, Rəsulzadə qəsəbəsi, Y.Həsənov küçəsi, ev 17 ünvanının çıxarışı (kupça) itdiyi üçün etibarsız sayılır.

Laçın qaçqını Mirişov Atamoğlan Uğurlu oğlunun adına verilmiş qaçqın vəsiqəsi itdiyindən etibarsız sayılır.

Cəlilabad şəhəri, Q.İsmayılov küçəsi, ev 34 ünvanının sahibi Fərruxova Samirə Eynulla qızının adına olan RX №1441428 çıxarış itdiyi üçün etibarsız sayılır.

İsmayılov Vasif Cəlil oğlunun adına, Bakı şəhəri, Nərimanov rayonu, Sabit Rəhimov küçəsi, ev 32, mənzil 9 ünvanının HDQHDƏDR-dən №1112008611 çıxarışı itdiyi üçün etibarsız sayılır.

Nağıyeva Alidə Nağı qızının adına, Abşeron rayonu, Novxanı qəsəbəsində yerləşən torpaq sahəsinin JN1274B şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

Nağıyeva Vəfa Məhəmməd qızının adına, Abşeron rayonu, Novxanı qəsəbəsində yerləşən torpaq sahəsinin JN1470A şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

Novruzova Aygün Feyruz qızına məxsus doğum haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

## "Bakcell" abunəçiləri minlərlə kinoya pulsuz baxmaq imkanı əldə edib

*"Bakcell" MEGOGO ilə əməkdaşlığa başlayıb*

**Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi "Bakcell" şirkəti məşhur MEGOGO video xidməti ilə əməkdaşlığa başlayıb. Bu əməkdaşlıq çərçivəsində "Bakcell" abunəçiləri 10 minə qədər lisenziyalı film, cizgi filmi, televiziya serialı və digər video məzmuna 12 aya qədər PULSUZ baxmaq imkanı qazanıblar.**




MEGOGO MDB ölkələri və Şərqi Avropa regionunun ən böyük beynəlxalq OTT/VOD xidmətləri təminatçısıdır. "Bakcell" və MEGOGO-nun birgə eksklüziv təklifində ən vacib məqamlardan biri də bu paketə Azərbaycan dilinə dublyaj edilmiş 400-dən çox filmin daxil edilməsidir.

Xidmətə bütün "Bakcell" abunəçiləri qoşula bilər (Cin, Klass və Biznes individual). Bu fürsətdən yararlanmaq üçün müştərilər öz "Bakcell" nömrələri ilə www.megogo.net internet səhifəsində və ya "GooglePlayStore" və "Appstore"dan yüklənilən MEGOGO mobil tətbiqetməsində qeydiyyatdan keçməlidirlər. Abunəçinin qoşulduğu tarif paketindən asılı olaraq, xidmətə 6-12 ay arasında pulsuz abunəlik təqdim edilir. PULSUZ istifadə müddəti bitdikdən sonra abunəçilər xidmətdən ayda cəmi 3 AZN xidmət haqqı ödəməklə yararlana bilərlər.

Qeyd edək ki, bu tərəfdaşlıq çərçivəsində MEGOGO xidmətindən 5 fərqli cihazda və 30-dan çox cihaz platformasında istifadə etmək mümkündür. Xidmətdə istifadə etmək üçün kəsintisiz internet bağlantısı (mobil və yaxud stasionar) tələb olunur.

Bu eksklüziv təklif və "Bakcell" şirkətinin digər sərfəli məhsul və xidmətləri barədə daha ətraflı məlumat www.bakcell.com səhifəsində yerləşdirilib.

Azərbaycanın ən müştəri yönümlü və innovativ telekommunikasiya xidmətləri təchizatçısı olan "Bakcell" öz abunəçilərini rəqəmsal müştəri təcrübəsi ilə yanaşı, ən yeni məhsul və xidmətlərlə təmin edir. Şirkət bunun üçün zəruri olan sürətli və yüksək keyfiyyətli mobil rabitə şəbəkəsini qurmağa nail olub. "Bakcell" müasir mobil rabitə istifadəçilərini bundan sonra da ən son, ən rahat və ən maraqlı xidmətlərlə təmin etmək məqsədilə innovasiya sahəsində İLK-lərə imza atmağa davam edəcək.

**MEGOGO haqqında**

MEGOGO MDB ölkələri və Şərqi Avropa regionunun onlayn video və TV üzrə ən böyük OTT/VOD xidmətləri təminatçısıdır. Xidmətin aylıq auditoriyası 50 milyon unikal tamaşaçıdan ibarətdir və bazasında 10 000-dən artıq kino və serial, 1500-dən artıq cizgi və animasiya filmi, 45 000-dən çox TV verilişi, konsertlər, kliplər və 20 000-dən çox xəbər proqramı daxil olmaqla 77 000-dən artıq video məvcuddur.

Xidmətdən iOS, Android və Windows platformaları üzərindən işləyən bütün cihazlar və Smart TV funksiyası olan televizorlarda istifadə etmək olar. Xidmət vasitəsilə, həmçinin, populyar TV kanalları və MEGOGO-nun öz interaktiv kino kanallarına baxmaq mümkündür.

Kinoya aid müxtəlif tədbirlərin ənənəvi partnyoru olan MEGOGO sosial layihələrdə də aktiv iştirak edir. Belə layihələrin biri eşitmə qabiliyyəti zəif olan insanlar üçün keçirilən "WatchtheSound" layihəsidir. Bu təşəbbüs çərçivəsində MEGOGO işarə dili üzrə tərcümə studiyasını təşkil edib. Həmin studiya sayəsində eşitmə qabiliyyəti zəif olan insanlar üçün minlərlə kino və cizgi filmi işarə dilinə tərcümə olunub və 100% kontentin işarə dilində təqdim olunan xüsusi interaktiv kanal yaradılıb.





**Qoç** - Laübəli, qarışıq gün olduğundan işlərdə tələskənliyə yol verməyin. Düşünülməmiş qərarlar çox pis nəticə verə bilər. Maraqlandığınız işlə məşğul olmaq üçün imkanlar yaranıb. İşdə və təhsildə sizi xoş anlar gözləyir.



**Buğa** - Gözləntilərinizdə yanıla bilərsiniz. Mövqelərinizə diqqət yetirin. İrəliləyişlər səylər və cəhdlərsiz mümkün deyil. Maliyyə problemləri, nəzərdə tutulmamış xərclər olacaq.



**Əkizlər** - Uğurlu gündür. Yaxın ətrafınıza sərt təzyiq etməsəniz, qarşınıza qoyduğunuz məqsədə çata biləcəksiniz. Yaşam proseslərinin mahiyyətini anlasanız, sədlərlə maneələri asanlıqla dəf edəcəksiniz.



**Xərçəng** - Problemlərin çözülməsində qeyri-standart metodlar daha effektivdir. Bütün qayda və təlimatlara riayət etmək, sadəcə, mümkün deyil. Uzun müddətdən bəri sizə opponent olmuş insanla dil tapa bilərsiniz.



**Şir** - Günün ilk yarısında aktiv olun. Yersiz və səbəbsiz etiraflar gözlənilməz nəticələr verə bilər. Parlaq, maraqlı olaylar əslində, fərqli məzmunda olacaq. Situasiyanı diqqətlə izləyin.



**Qız** - Mövqelərinizi qoruyun. Fəaliyyətinizi ətrafınızdakı insanlardan bir qədər təcrid edin. Emosional baxımdan mürəkkəb gündür. Romantika olmayacaq. Hədiyyə gözləməyin. Tənhalığa qapılmayın, müstəqil olun.



**Tərəzi** - Maraqlarınızın təminatı üçün sayıq və huşyar olun. Yaşamınızı, özünüzü dəyişə bilərsiniz. Təssüratlarla emosiyalar yenilənəcək. Eksperimentlər apararaq biliklərlə bacarıqlarınızı nümayiş etdirə bilərsiniz.



**Əqrəb** - Günün ilk yarısında yaxın ətrafınızdakı insanların hədsiz gözləntiləri ilə qarşılaşacaqsınız. İradlar və tənqidlər üçün münasib zaman deyil. İstirahət, əyləncə istəklərini təxirə salın.



**Oxatan** - Dəyər verdiyiniz insanların istəklərini və niyyətlərini anlamağa çalışın. Kömək gözləyən insanlara yardım edin. Laqeyd olsanız, bunu sizə deməyəcəklər, amma unutmayacaqlar.



**Oğlaq** - Müşahidə və təhlil üçün yetərincə xəbər alacaqsınız. Bəzi insanları yaxşı tanımadığınızı anlayacaqsınız. Darıxmaq üçün vaxt olmayacaq. Yaxın ətrafınızdakı insanların nə işlə məşğul olduqlarını bilin.



**Dolça** - Başladığınız işləri yarımçıq qoymayın. Günün ilk yarısında rutin tapşırıqların öhdəsindən gəlin. Mübahisələrə, yarışlara qatılmayın. Yaxın ətrafınızdakı insanların müqavimləti ilə qarşılaşa bilərsiniz.



**Balıqlar** - Günün ilk yarısında işlərə müsbət emosiyalarla başlayın. Qüvvəniz artacaq, yaşam enerjinizin səviyyəsi yüksələcək. Əhvalınız nikbin olsun. Ciddi işləri uğurla həll etmək mümkündür.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## 6,7 milyon dollarlıq çanta...



**Britaniyada "milyarderlərin dizayneri" kimi tanınan Debbi Uinqhem dünyanın ən bahalı və unikal qadın çantasını hazırlayıb.**

"Daily Mail" bildirir ki, 6,7 milyon dollar dəyərindəki çantanın hazırlanmasında 24 karatlıq qızıldan və platindən, "Hermes" şərfindən, emu dəvəquşusunun yumurtasından, 8000 brilyant qaşdan və "Cartier" brendinin əsəri olan sırğalardan istifadə olunub. Çantaya forma verən emu yumurtasının səthi mavi almaz tozlu emalla örtülüb. Yumurtanın qızıl qabığını isə italyan dizayner Alessandro Qalanti hazırlayıb. 37 yaşlı Debbi Uinqhem Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində yaşayır.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə
Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39
e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846
Qəzet həftədə 5 dəfə çıxır.
(Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.
Sifariş: №2514 Tiraj: 3050

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.